# İlham Əliyev: “Bizim xarici siyasətimiz çox açıq, şəffaf, sabit və müstəqildir”




**Səs**

№ 187 (6387) 14 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik


Səhifə 2

## Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib

*Azərbaycan Prezidenti: ”Planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır”*



“Media və Hüquqi Maarifləndirmə” mövzusunda tədbir keçirilib

9



İsrailli filosof və politoloq Qarabağa qanunsuz səfəri haqqında

11

## Azərbaycan tolerantlıq nümunəsi və mültikulturalizm mərkəzidir



*Azərbaycan hələ qədim dövrlərdən bəri müxtəlif dinlərin yayıldığı, fərqli inanc sahiblərinin sülh və əmin-amanlıq şəraitində yaşadığı məkan olub və ayrı-ayrı dinlərin mənsubları tarixin heç bir dönəmində ayrı-seçkiliyə məruz qalmayıblar. Bu gün də ölkəmiz bir çox sahələrdə olduğu kimi,...*

Səhifə 8

Bax 13

### Bu dəfə İranı pəjmürdə edən nədir?

*Bu gün İran-Azərbaycan böhranının regional nəşrlərin əsas mövzusuna çevrildiyi barədə deyilir. Belə görünür ki, Cənubi Qafqaz hələ də uzunmüddətli sabitlik mərhələsinə qədəm qoymayıb.*

Bax 15

### Aleksandr Alaniya: Azərbaycan qədim şərabçılıq ənənələrinə malik heyrətamiz bir ölkədir

Azərbaycana tətilə gedərkən, qədim Şamaxı şəhərinə səfər etməyi planlaşdırdığınızdan əmin olun. Özünəməxsus təbiətə və çoxlu sayda memarlıq abidələrinə əlavə olaraq, bu bölgə təbii üzüm sortlarından hazırlanan ləzzətli şərabları ilə də məşhurdur. Azərbaycana tətilə gedərkən, qədim Şamaxı şəhərinə səfər etməyi planlaşdırdığınızdan əmin olun...

## Separatçı erməni qaçqını: “Qarabağda heç bir erməni qalmayacaq”

*Hökumət bizə verdiyi heç bir sözünü yerinə yetirmir. Bunu İrəvanda - Ermənistanın hökumət binasının qarşısında etiraz aksiyası keçirən Qarabağ erməniləri bildiriblər. SİA erməni mediasında istinadən xəbər verir ki, Azərbaycanın işğaldan azad olunmuş Hadrut rayonundan Ermənistana qaçan erməni bildirib ki, onların etirazları hökumətdən iş, yaşayış yeri tələb etmələri ilə bağlıdır.*



4

## Bakıdakı dəhşətli qəza ilə bağlı yeni TƏFƏRRÜATLAR!






## Amerikalı müğənni yad planetlilərlə bağlı açıqlama verib

*Amerikalı məşhur müğənni və aktrisa Demi Lovato bir müsahibəsində, yadplanetlilər haqqında danışarkən ”yad” sifətinin istifadə edilməməsini və alçaldıcı olduğunu iddia edib.*

11

*2022-ci ildə keçiriləcək Futbol üzrə Dünya Çempionatının seçmə mərhələsində Lüksemburqla matç Portuqaliya millisinin kapitanı Ronaldodan yeni rekord! Kriştiano Ronaldo üçün əlamətdar olub. Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu görüşdə 3 qol vurub.*



## Ronaldodan yeni rekord!

16



### Qarabağda toqquşan maraqlar: İran kim, Fransa kim?

14



### Vadim Dubnov: ”İndi əsas məsələ sülh müqaviləsi deyil, bölgənin inkişafıdır”

13

*Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib. Müsahibənin tam mətnini təqdim edirik.*



# İlham Əliyev: "Bizim xarici siyasətimiz çox açıq, şəffaf, sabit və müstəqildir"

*Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib*

Prezident İlham Əliyev: Sabahınız xeyir.

**Müxbir: Sabahınız xeyir, cənab Prezident, necəsiniz?**

Prezident İlham Əliyev: Təşəkkür edirəm, yaxşıyam. Sizi yenidən görməyimə şadam.

**- Mən də Sizi görməyimə şadam. Ermənistanla münaqişə mövzusundan başlamaq istəyirəm. Rusiyanın sülhməramlı vasitəçiliyindən razısınızmı?**

- Bəli, ümumilikdə biz bundan məmnunuq. Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən biz bundan razıyıq. Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq.

## Azərbaycan Prezidenti: "Planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır"

**- Aydındır. Bakı azad olunmuş ərazilərə sərmayə qoyacaqmı?**

- Biz artıq sərmayə yatırırıq. Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir. Bu ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq.

Hazırda biz avtomobil və dəmir yolları inşa edirik. Azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq o, ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. Bununla yanaşı, biz artıq yaşayış binalarının tikintisi layihələrinə başlamışıq. İki şəhərin Baş planı təsdiq edilib və işlərə start verilib. Yəni, biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır.

**- İtaliyanın yenidənqurma işlərinə cəlb edilməsi nəzərdə tutulurmu və ya İtaliya artıq bu işlərdə iştirak edirmi?**

- İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir. İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq.

**- Bildiyiniz kimi, Avropada qazın qiymətində ciddi artım var. Trans-Adriatik qaz kəmərinin qiymətin müəyyən dərəcədə aşağı səviyyədə saxlanılmasında rolu ola bilər. Həmin boru xətti ilə bağlı hansı yeni imkanlar var?**

- Biz əsasən diqqətimizi Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans-Adriatik boru xəttinin başa çatdırılmasına yönəltmişdik. Ötən ilin sonuncu günü - dekabrın 31-də ilk qaz Avropaya nəql edilməyə başlandı və İtaliya artıq Azərbaycandan qaz qəbul etməyə başladı. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan da artıq həcmdə qazla təmin edəcək. Yəni, bu iş artıq başa çatdırılıb. İndi isə biz gələcəyə baxmalıyıq, çünki biz yeni qaz yataqları kəşf etmişik. Bununla yanaşı, mövcud yataqlardan da daha çox qaz hasil etməyi planlaşdırırıq. Həmçinin xarici investorlarla bərabər yenilənən enerji mənbələrinə böyük sərmayə qoyuruq.

**- Gəlin, Əfqanıstan haqqında danışaq. Siz Taliban hökumətini tanımağa hazırsınızmı?**

- Biz hazırda hər hansı bir addımın atılması mərhələsində deyilik. Azərbaycan bilavasitə Əfqanıstana yaxın coğrafiyada yerləşmir. Hesab edirəm ki, ilk olaraq, bu qərarı Əfqanıstanın qonşuları verməlidir. Biz heç vaxt nə siyasi, nə iqtisadi, nə də ki, nəqliyyat sahəsi baxımından Əfqanıstanla sıx bağlı olmamışıq. Bizim Əfqanıstanda mövcudluğumuz orada sülhməramlı əməliyyatlarda iştirakla məhdudlaşıb. Yeri gəlmişkən, Azərbaycan hərbçiləri Kabil hava limanını sonuncu tərk edənlər sırasında olublar. Hərbçilərimiz hava limanını orada baş verən partlayışdan bir gün əvvəl tərk ediblər. Yəni, biz missiyamızı sonuncu günədək ləyaqətlə və maksimum səmərəli dərəcədə icra edirdik. Hazırda Əfqanıstanda yeni hökumətin qurulması və xarici siyasət prioritetlərinin müəyyən edilməsi dövrüdür. Müsbət meyil, müsbət yanaşma və potensial əməkdaşlıq əlamətləri gördüyümüz halda biz, əlbəttə ki, adekvat şəkildə cavab verəcəyik. Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir. Xarici siyasətimiz tamamilə hər hansı xarici hökmranlıqdan azaddır. İkincisi isə praqmatiklikdir. Biz mövqeyimizi məhz bunun əsasında formalaşdırırıq.

## Azərbaycan Prezidenti: "Əfsuslar olsun ki, İran bizim dostcasına etdiyimiz xəbərdarlığa adekvat cavab vermədi"

**- Avropanın Cənubi Qafqazda daha geniş iştirakı müsbət hal ola bilərmi?**

- Hazırda bu məsələlər geniş şəkildə müzakirə edilir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı biz Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr apardıq. Əlbəttə, əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.

Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz, həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik.

**- İranla bağlı nələr baş verir?**

- Ümumilikdə? Yoxsa ikitərəfli münasibətlərimizi nəzərdə tutursunuz?

**- Bəli. Müəyyən narahatlıq, müəyyən problemlər var. Bununla bağlı nə etməyi planlaşdırırsınız? Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan onlar o qədər də məmnun deyillər. Belədirmi?**

- Bilirsiniz, bu, bəhanədir. Baş verənlərin səbəbi bizim bəzi digər ölkələrlə olan münasibətimiz deyil, çünki xarici siyasətimiz çox açıqdır, şəffafdır, sabit və dediyim kimi, müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırırsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq.

Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik.

Ardı Səh. 3

Əvvəli-Səh-2

Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, - demişəm ki, bizim



# İlham Əliyev: "Bizim xarici siyasətimiz çox açıq, şəffaf, sabit və müstəqildir"

*Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib*

## *Azərbaycan Prezidenti: Planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır*

prioritetimiz qonşu ölkələrlə münasibətlərdir.

Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə, biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik.

**- Sağ olun. Yalnız sonuncu sual. Üzr istəyirəm, "Pandora sənədləri"ni Sizdən soruşmaya bilmərəm. Bildiyiniz kimi, adınız orada çıxıb. Siz müdafiə olaraq "Pandora sənədləri" haqqında nə deyərdiniz?**

- Bilirsiniz, bu cür məsələlər məni çox illərdir müşayiət edir. Siyasi konyunkturadan asılı olaraq Qərbdə bəzi qüvvələr vaxtaşırı Azərbaycanı gözdən salmaq, onun mövqeyini zəiflətmək üçün bu cür iftiralardan və böhtanlardan istifadə etməyə çalışır. Aydındır ki, bu, jurnalist araşdırması deyil. Məlumdur ki, bunun arxasında kim dayanır. Aydındır ki, nəyə görə Azərbaycanın da adı çıxır. Mən başqaları haqqında bilmirəm. Ola bilsin, bəlkə onlar da elə bir şey ediblər ki, Qərbdə bəzi qüvvələrin xoşuna gəlməyib. Lakin Azərbaycana gəldikdə, əlbəttə ki, İkinci Qarabağ müharibəsində Qələbə bir çoxları üçün sürpriz oldu. Bu, onların xoşuna gəlmədi. Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirlər. İndi isə bir halda ki, Azərbaycan bunu özü etdi və Ermənistanı məğlub etdi, Ermənistana sıx bağlılığı olan Qərbdəki həmin dairələr yenə böyük fəallığa keçiblər. Biz bunu gözləyirdik. Əslində, biz bilirdik ki, Azərbaycana qarşı yeni qarayaxma kampaniyası planlaşdırılır.

Mətləbə gəldikdə, bildirmək istərdim ki, mən on səkkiz ildir Prezidentəm. Mən bundan əvvəl sahibkar olmuşam, bizneslə məşğul olmuşam. Tərcümeyi-halım da məlumdur. Özü də uğurlu sahibkar olmuşam. Prezident seçiləndə mən kasıb insan deyildim. Prezident olduqdan sonra mən biznesdə birbaşa iştirakımı dayandırdım və biznesi öz ailəmə ötürdüm. Siz bəlkə məni başa düşərsiniz ki, bütün mirasını pişiklərə və itlərə qoyub gedən Qərbdəki digər insanlardan fərqli olaraq, İtaliya və Azərbaycanda biz ailə dəyərlərinə daha çox üstünlük veririk. Buna görə, mən bütün biznesimi uşaqlarıma ötürdüm. Onlar isə səylər göstərib biznesi davam etdirirlər. Onların əsasən Azərbaycanda sərmayələri var. Onların Azərbaycandan kənarda sərmayələri var. Onların bütün biznes fəaliyyəti şəffafdır və beynəlxalq səviyyədə auditdən keçir və heç kəs burada bir şeyin səhv olması iddiası ilə çıxış edə bilməz.

Sənədlərdə nə yazılıbsa, səmimi desəm, mən onları oxumamışam. Mənə məlumat verildi və orada ola bilsin 5 faiz həqiqətdir. Qalanı isə yalandır. Amma bir daha bu haqda açıq söyləməyə qanuni haqqım var. Azərbaycanda sirr deyil ki, mənim qohumlarım və ailə üzvlərim biznesdə, xeyriyyəçilikdə və hazırda Qarabağda aparılan bir çox işlərdə iştirak edirlər. Məsələn, mənim yaratdığım Fond hazırda Qarabağda - Ağdamda, Şuşada və Zəngilanda bütün məscidlərin bərpasına sərmayə yatırır. Bu işlər Fondun pulu hesabına maliyyələşdirilir. Biz qaçqınlar üçün evlərin tikintisini maliyyələşdirmişik. Beş mindən çox ailə üçün bu işi görmüşük. Biz Azərbaycanda çox işlər görürük. Əlbəttə ki, bunlar Qərbdə bəzi insanların xoşuna gəlmir. Onlar bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq. Bizi iradələrinə tabe etdirmək istəyirlər. Mən isə deyirəm: Yox! Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm. Bütün həmin çirkin hekayələrin isə mənim və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur.

- Cənab Prezident, çox sağ olun. Ümid edirəm, Sizinlə bir gün Bakıda görüşəcəyəm.

## *İlham Əliyev: "Rusiyanın sülhməramlı vasitəçiliyindən ümumilikdə razıyıq"*

# Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub






***Oktyabrın 13-də Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub. Təqdimatda çıxış edən Heydər Əliyev Fondunun şöbə müdiri Cəmil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın qürur tarixini yazdığını bildirib. Qeyd edib ki, təqdim olunan səkkiz bölmədən ibarət resurs isə 44 günlük Vətən müharibəsinin salnaməsini Azərbaycan, rus və ingilis dillərində izləyicilərə çatdırır.***




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, dövlətimizin başçısının müxtəlif beynəlxalq media qurumlarına və xəbər agentliklərinə müsahibələri, tvitləri, videokonfransları, onlayn görüşləri, müxtəlif ölkələrin prezidentləri və rəsmiləri ilə telefon danışıqları, yerli və beynəlxalq qurumların, müxtəlif ölkələrin və təşkilatların nümayəndə heyətləri ilə keçirilən qəbullar, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi açıqlamaları, xarici mediada Vətən müharibəsi ilə bağlı dərc edilən məqalələr, 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı hücumlarla bağlı məlumatlar portalda əksini tapıb.

Belə bir resursun yaradılmasının vacibliyini vurğulayan saytın işçi qrupunun üzvü Şamxal Əbilov deyib: "Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbəyə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və qalib Azərbaycan Ordusuna minnətdarlıq edir, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik".

Təqdimat zamanı bildirilib ki, portalın əsas səhifəsində Vətən müharibəsinin hər günü və Ermənistanın kapitulyasiyasını ifadə edən üçtərəfli Bəyanat yer alıb. Bundan başqa, müharibənin hər günü ayrıca bölmələrdə təqdim edilir, xarici mediada həmin günə aid dərc olunan məqalələr və analitiklərin proqnozları mətn və linklərdə əks olunur.

Portalın "44 günlük müharibəyə gedən yol" bölməsində 2020-ci ilin iyul hadisələri xronoloji ardıcıllıqla təqdim edilib və "Müharibə niyə baş verdi?" başlıqlı təhlil verilib. 2020-ci il iyulun 14-də Ordumuza dəstək məqsədilə Bakının mərkəzində keçirilən yürüşün fotoları və xarici mediada bu hadisələrlə bağlı dərc olunan məqalələr mətn və linklərlə təqdim edilib. "Mülki əhaliyə hücum" bölməsində isə Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun cəbhəboyu mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Gəncə, Goranboy, Tərtər və cəbhə xəttindən kənarda yerləşən digər şəhər və rayonlara endirdiyi raket zərbələri və artilleriya atəşi nəticəsində mülki əhalimizin öldürülməsi və onlara dəyən ziyanı əks etdirən məqalələr xronoloji ardıcıllıqla yerləşdirilib.

Azərbaycan Ordusunun Vətən müharibəsindəki tarixi Qələbəsi münasibətilə Bakıda keçirilən hərbi paraddan videogörüntülər, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərə etdiyi səfərlərin xronoloji ardıcıllığı, o cümlədən foto və video materiallar da sayt izləyicilərinə təqdim edilir.

Bundan əlavə, portalda Qarabağ münaqişəsinin tarixi, hüquqi və siyasi aspektləri, işğal olunan ərazilərdə mədəni irs və təbii sərvətlərimizə qarşı ermənilər tərəfindən törədilmiş cinayətlər, Xocalı soyqırımı ilə bağlı gerçəkləri özündə əks etdirən baza yaradılıb.

# "Ayrılan vəsait regionların inkişafına böyük təsir göstərəcək"

## - İQTİSADÇI EKSPERT AÇIQLADI

"Regional magistral yolların çəkilməsinə hər zaman kifayət qədər vəsait ayrılır". Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Natiq Cəfərli deyib. Onun sözlərinə görə, bu vəsaitin nəticəsində regionlarda gediş-gəliş yaxşılaşır və rahatlaşır. Atılan bu addım növbəti mərhələdə regionlarda iqtisadi aktivliyin artmasına kömək edəcək amillərdən birinə çevrilir.



Natiq Cəfərli bu haqda fikrini belə izah edib: "Çünki yol inrastrukturunun keyfiyyətli olması və rahatlaşdırılması həm regionda yaşayan əhalinin bir-biri ilə münasibətlərini, gediş-gəlişini asanlaşdırır, həm də regionlarda iqtisadi əlaqələrin yaxşılaşmasına gətirir çıxarır. Kənd təsərrüfatı məhsullarının bazara çıxarılmasının sürətini artır və vaxtını azaldır. Bu da fermerlərə və regionlarda yaşayan insanlara iqtisadi aktivlik üçün kifayət qədər kömək edən amildir. Buna görə də, regionlarda yol infrastrukturlarının qurulması və ya onların yenidənqurulması ümumi regionların inkişaf proqramının tərkib hissəsidir. Bu istiqamətdə illərdir vəsaitlər ayrılıb. Ayrılan vəsaitin xərclənməsinə nəzarətin gücləndirilməsi, effektivliyinin artırılması, qurulan infrastruktura nəzarətin gücləndirilməsi əsas məsələdir. Bununla da ayrılan vəsait regionların inkişafı üçün daha da böyük təsir göstərmiş olacaq".

***Turqay Musayev***

# Separatçı erməni qaçqını: "Qarabağda heç bir erməni qalmayacaq"



***Hökumət bizə verdiyi heç bir sözünü yerinə yetirmir. Bunu İrəvanda - Ermənistanın hökumət binasının qarşısında etiraz aksiyası keçirən Qarabağ ermənləri bildiriblər. SİA erməni mediasında istinadən xəbər verir ki, Azərbaycanın işğaldan azad olunmuş Hadrut rayonundan Ermənistana qaçan erməni bildirib ki, onların etirazları hökumətdən iş, yaşayış yeri tələb etmələri ilə bağlıdır. "Hökumət bizimlə sonuncu görüşündə vəd verdi ki, sosial dəstək göstərəcəklər və hər ay bizə adambaşı 25 min dram verəcəklər", deyə o bildirib.***

Lakin etirazçı erməni hökumətin Qarabağda (Rusiya sülhməramlılarının məsul olduqları və hələ də separatçıların qaldıqları Azərbaycan əraziləri-R.) onlar üçün yaşayış evləri tikəcəyi ilə bağlı qərarına da maraqlı münasibət bildirib. Onun sözlərinə görə, qaçqınlar Qarabağa yalnız o halda geri qayıda bilərlər ki, əgər orada "milli-azadlıq mübarizəsi" (?!) başlasın. "Əgər Qaraba "status" ala bilməsə orada heç bir erməni qalmayacaq", deyə düşdüyü ağır və böhranlı vəziyyətindən nəticə çıxara bilməyən separatçı erməni qaçqını bildirib.

***Rövşən***

# Qars müqaviləsindən Şuşa bəyannaməsinə gedən tarixi yol!

*Tarixi əhəmiyyətə malik beynəlxalq müqavilə olan Qars müqaviləsindən 100 il ötür. 13 oktyabr 1921-ci ildə Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında sülh müqaviləsi bağlanıb. Qars müqaviləsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapıb və ərazi-sərhəd problemi həll olunub. Mühüm tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsi Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir.*



*Prezident İlham Əliyev: "Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir"*

Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu müqaviləyə qədər olan tarixi dövrə nəzər salsaq görərik ki, XX əsrin 1918-20-ci illərində Azərbaycanda və onun Naxçıvan bölgəsində vəziyyət çox mürəkkəb xarekter almışdır. Mövcud vəziyyətdə Azərbaycandan lazımi köməyi ala bilməyən Naxçıvanın təkləndiyini görən azğın erməni daşnakları hərbi və siyasi yolla qədim diyarı işğal etmək istəyirdilər. Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvana hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. Ağlasığmaz vəhşiliklər və qırğınlar törədən erməni daşnakları Naxçıvan bölgəsində azərbaycanlıların inadlı müqavimətinə rast gəlmişdilər. Tarixdən bizə aydındır ki, 1918-1920-ci illərdə ermənilər Naxçıvanda soyqırımlar törədib, lakin əhalini tabe edə bilməmişdilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilədə isə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur Ermənistana güzəşt edilmişdi.

1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradılıb. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış edib. Rusiyanın diktəsi ilə yazılmış bəyanat iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Buna görə də həmin bəyanat Naxçıvan və Zəngəzurun müsəlman əhalisinin haqlı narazılığına səbəb olmuş, eləcə də bu bəyanat Türkiyə nümayəndələri tərəfindən də etirazla qarşılanmışdır.

Türkiyə və üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda imzalanan müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuş, qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr rədd edilirdi. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit edilmişdi. Naxçıvanın statusu və tabeçiliyi məsələsi beynəlxalq müqavilələrlə tam şəkildə həll edilib.

### "NAXÇIVANIN BÜTÖVLÜYÜNÜ, TƏHLÜKƏSİZLİYİNİ, DÖVLƏTÇİLİYİNİ, MUXTARİYYƏTİNİ GƏLƏCƏKDƏ DƏ TƏMİN ETMƏK ÜÇÜN QARS MÜQAVİLƏSİ BİZİM ÜÇÜN ÇOX BÖYÜK, ƏVƏZİ OLMAYAN SƏNƏDDİR"

Bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilib və həmin il sentyabrın 11-dən qüvvəyə minib.

Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verilib. Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin müxtəlif dönəmlərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilib.

Qars müqaviləsində muxtariyyətin əsası qoyulub, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılıb, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilib. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. Ümummilli Lider Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək belə deyirdi: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".

### TÜRKİYƏNİN AZƏRBAYCANA DƏSTƏYİNİ ƏN YÜKSƏK ŞƏKİLDƏ NÜMAYİŞ ETDİRƏN ŞUŞA BƏYANNAMƏSİ

1991-ci il yanvarın 11-də Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırıb. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaradıb. Naxçıvanın tarixində mühüm və əhəmiyyətli məsələ olan Qars müqaviləsi XX əsrdə Naxçıvan ərazi bütövlüyünün təmin olunmasında mühüm rol oynamışdır.

100 il sonra - 1921-ci il 13 oktyabrda imzalanmış Qars müqaviləsindən sonra Türkiyənin Azərbaycana dəstəyini ən güclü formada nümayiş etdirən rəsmi sənəd Şuşa Bəyannaməsi imzalandı. 30 ilə yaxın erməni işğalçılarının tapdağı altında əzilən Şuşa ötən il noyabrın 8-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və Milli Ordumuzun rəşadəti ilə böyük zəfərə, şanlı qələbəyə imza atdı. Cari ilin iyunun 15-də isə Şuşa Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalandığı tarixi məkana çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Tarixi Qars müqaviləsi yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir". İki dost və qardaş ölkə arasında imzalanmış bu sənəd Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən dünyaya bir mesaj oldu. Bu günə qədər iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq imzalanmış Bəyannamə Azərbaycan və Türkiyə arasındakı münasibətlərə böyük töhfədir. Şuşa Bəyannaməsi regiondakı yeni reallıqlara, inkişafa, sülhün tam təminatına böyük təkandır. Qars müqaviləsinə istinad edilən Bəyannamə öz formatına görə ondan daha əhatəli sənəddir. Bu sənəddə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi, iqtisadiyyat, təhsil, müasir texnologiyalar üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi, Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi, iki ölkənin silahlı qüvvələrinin fəaliyyət qabiliyyətinin birlikdə artırılması və digər tədbirlər nəzərdə tutulur.

### "TÜRKİYƏNİN AZƏRBAYCANA VERDİYİ SİYASİ VƏ MƏNƏVİ DƏSTƏK HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞINI QÜRURLANDIRIR, SEVİNDİRİR"

Şuşa Bəyannaməsi beynəlxalq hüququn prinsip və normalarına, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi üçün mühüm rol oynayacaq. Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsipləri öz əksini tapıb. Sənəddə qeyd edilir ki, tərəflərdən hər hansı birinin ərazi bütövlüyünə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edilərsə, onun aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçiriləcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstəriləcək.

Əlbəttə ki, Şuşa Bəyannaməsi bu gün 100 illiyini qeyd etdiyimiz Qars müqaviləsi qədər tarixi əhəmiyyətə malikdir. Dövlətlərarası əməkdaşlığın daha da möhkəmlənməsində mühüm rol oynayacaq. 44 günlük Vətən müharibəsində Azərbaycan və Türkiyə arasındakı tarixi qardaşlıq və dostluğun sarsılmazlığını bir daha bütün dünya görmüş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Terror kimi yol qəzaları - ARAŞDIRMA

***Dünyada hər il orta hesabla 1,3 milyon insan yol qəzaları nəticəsində ölür. Məlumdur ki, bu qəzaların əksəriyyəti insan səhvlərindən, yəni daha çox sürücü səhvlərindən qaynaqlanır. Avtomobil istehsalçıları yol qəzalarının qarşısını almaq üçün inkişaf etdirdikləri texnologiyaları avtomobillərə inteqrasiya etməyə davam edirlər. Qəzaların səbəbləri arasında bir çox fərqli səbəb var.***





Yol qəzası, avtomobil yolunda hərəkət edən bir və ya daha çox nəqliyyat vasitəsinin iştirakı olan ölüm, yaralanma və zədələnmə ilə nəticələnən hadisədir. Ölkəmizdə nəqliyyat vasitələrinin sayı gündən-günə artır və bununla yanaşı şüursuz sürücülərin artması və yol hərəkəti qaydalarına riayət edilməməsi yol qəzalarını artırır. Yol qəzaları



maddi ziyana, müvəqqəti və ya daimi əlilliyə və daha da pisi, ölümlə nəticələnə bilər. Sürücü, piyadalar, nəqliyyat vasitələri yol qəzalarına səbəb ola bilər.

Yol qəzaları qəzaya səbəb olan amillər baxımından fərqlənir. Yol qəzalarının səbəbləri arasında bir çox fərqli amil rol oynayır. Buna görə dünyada yol qəzalarının əsas səbəbi həddindən artıq sürət olaraq göstərilir. Nəqliyyat vasitəsi ilə təyinat yerinə çatmaq istəyərkən sürət nişanlarına əməl etməmək və sürət həddini aşmaq yol qəzalarına səbəb olur. Həddindən artıq sürət halında meydana gələn yol qəzalarında ölüm riski digər qəzalara nisbətən daha yüksəkdir. Bu səbəbdən asılı olmayaraq həddindən artıq sürətdən qaçmaq və nəqliyyat vasitəsi ilə gedən yolda səlahiyyətlilər tərəfindən müəyyən edilmiş sürət həddlərinə riayət etmək böyük əhəmiyyət kəsb edir.

Qəzaların səbəbləri arasında ikinci vacib məsələ diqqətsizlikdir. Nəqliyyat vasitəsi ilə səyahət etmək üçün güzgü və ətrafı daim yoxlayarkən öndəki nəqliyyat vasitələrinin hərəkətlərini izləmək lazımdır. Mütəxəssislər, maşın sürərkən nəqliyyatın gedişi və ətraf mühitin nəzarətindən başqa heç bir şeylə maraqlanmamağın vacibliyini vurğulayırlar. Avtomobil sürərkən telefon, yemək və içki və s. faktorlarla məşğul olmaq, bir sözlə, diqqətsiz olmaq ciddi nəticələrə səbəb ola bilər. Digər tərəfdən yorğunluq və yuxusuzluq diqqətsizliyə səbəb olur. Bu səbəbdən, uzun yollarda nizamlı olaraq istirahət etmək və trafikə yuxusuz vəziyyətdə getməmək üçün nəzərə alınmalı olan ən əhəmiyyətli nöqtələrdən biridir.

Sükan arxasında şüurlu, hörmətli, səbirli və anlayışlı bir sürücü olmaq və eyni zamanda ən əsas yol hərəkəti qaydalarını bilmək və bu qaydalara riayət etmək lazımdır. Qaydalara riayət etmədən şüursuz şəkildə maşın sürməyə çalışmaq avtomobil qəzalarının əsas səbəblərindən biridir. Sükan arxasından xəbəri olmayan sürücülər nəinki özlərini riskə ata, həm də digər sürücülər və piyadalar üçün təhlükə yarada bilər. Yol hərəkəti haqqında məlumatlılığı artırmaq üçün qaydaları yaxşı başa düşmək və daim məşq etmək lazımdır.

Sərxoş vəziyyətdə avtomobil idarə etmək, sürücüyə və ətraf mühitə vurduğu zərər baxımından daim mübarizə aparan bir mövzudur və ictimai şüurun artırılması üçün səy göstərilir. Bundan əlavə, spirtli içkilər avtomobil qəzalarının əsas səbəblərindən biridir. Alkoqol sürücünün üstünlüyünü və sürücülük qabiliyyətini minimuma endirən bir maddə olduğundan, spirtli içkilərin təsiri altında sükan arxasına keçməkdən mütləq çəkinməlisiniz.

Yol hərəkəti qaydaları sürücüləri və ətraf mühiti qəzalardan qorumaq üçün hazırlanmış qaydalardır. Bu qaydalara riayət etmək böyük ölçüdə yol qəzalarının qarşısını alacaq. Məsələn, Yol qəzalarını böyük ölçüdə önləyə biləcək qaydalara növbə ilə siqnal vermək, piyada keçidlərində nəzarəti saxlamaq, aşağıdakı məsafəni saxlamaq, ötmə qaydalarına riayət etmək, qırmızı işıqda keçməmək, kəsişmənin prioritetlərini bilmək, zolaq və zolaq dəyişikliklərini diqqətlə izləmək daxildir.

Yol qəzası yaşamaq və ya hər hansı qəzaya səbəb olmaq, sürücülərə maddi və mənəvi təsir edən bir prosesdir. Bunun üçün yol hərəkəti qaydalarını bilmək və yol qəzalarına səbəb ola biləcək səbəblərdən qaçınmaq lazımdır. Unutmayın ki, yol hərəkəti qaydalarını təyin etməyin ən əsas səbəbi trafikin tənzimlənməsi deyil, sürücülərin və sərnişinlərin başına gələ biləcək pis hadisələrin qarşısını almaqdır. Yuxarıda sadalanan əsas məqamlara diqqət yetirməklə və yol hərəkəti qaydalarına riayət etməklə mümkün qəza riskini minimuma endirə bilərsiniz. Yeri gəlmişkən, ilk növbədə maşına minən kimi təhlükəsizlik kəmərini bağlamağı unutmayın.

## Sürücünün yol qəzalarına səbəb olan səbəbləri

Təcrübəsiz maşın sürmək
Yol və hava şəraitinə qarşı tədbir görməmək
Tıxacda ehtiyatsızlıq
Sərxoş maşın sürmək
Avtomobil sürərkən sürətləndirmək
Yol hərəkəti qaydalarına əməl etməmək
Piyadaların yol haqqından məhrum edilməsi

## Sərnişinin yaratdığı yol qəzalarının səbəbləri

Sürücünün birinci yol haqqından məhrum edilməsi
Yol hərəkəti qaydalarına əməl etməmək
Qırmızı işığı keçmək
Dayanmış nəqliyyat vasitəsinin qarşısına və ya arxasından çıxmaq
Piyada keçidindən istifadə etməmək
Yolda əl arabasından səhv istifadə

Avtomobilin qəzaya uğraması zəncirvari yol qəzalarına da səbəb olur. Yolda yaranan problemlər tıxacda olan sürücülərin həyatını təhlükəyə ata bilər.

Sürücünün, piyadanın, nəqliyyat vasitəsinin və yolun qəzaya səbəb olduğunu görürük. Yol qəzalarının qarşısını almaq üçün sürücülük vəsiqəsi aldıqdan sonra məşq etməli, maşın sürərkən həmişəkindən daha diqqətli olmalı, tam yuxu alınmalı, yol hərəkəti qaydalarına riayət etməli və sərxoş vəziyyətdə avtomobil idarə etməməlisiniz.

**SİA məsələ ilə bağlı araşdırma apararaq sosioloq, psixoloq və ekspertlərin fikirlərini öyrənib.**

**Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Lalə Mehralı:** "Son zamanlar sıxsıx yol nəqliyyat hadisələri baş verir. Bir üzücü xəbəri də elə bu sabah aldıq. Sürücülərin vaxtından çox iş başında olmaları, dincəlməmiş yola düşmələri, tibbi yoxlanışdan keçmədən işə qəbul olunmaları bu qəzaların əsas səbəblərindəndir. Ümumi götürdükdə isə səbəb çoxdur.

Ən çox da bu tip qorxulu qəzalar uzun yol qət edən sürücülərdə olur. Çünki, onlar tam olaraq yuxularını almırlar. Yəni, yuxudan doymurlar. Az yatıb, çox işləyirlər. Günün çox saatlarını yolda olduqları üçün lazımi qədər dincəlmək şansları da olmur.

Onları buna bəzən firmalar, şirkətlər, bəzən də ağır iş şərtləri məcbur edir. Yəni, burada yalnız sürücünü günahlandırmaq da olmaz. Əgər sürücü çalışdığı şirkətə etiraz edərsə, işdən çıxarılır və s.

Belə hallar yalnız yol sürücülərində deyil, avtobus sürücülərində də müşahidə olunur. Bu yorğunluğun nəticəsi də bu günkü faciədir. Burada tək bir nəfəri günahlandırmaq olmaz".



**Yazıçı-kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov:** "Son illər istər dünyanın bir çox ölkələrində, xüsusən də Şərq ölkələrində, istərsə də Azərbaycanda avtomobil qəzalarının həm fərdi nəqliyyat vasitələri, həm müəssisələrin və hüquqi şəxslərin sürücüləri tərəfindən idarə olunan müxtəlif təyinatlı yük maşınları, avtobuslar və digər bu tipli nəqliyyat vasitələrinin törətdiyi qəzalar nəticəsində on minlərlə insanın əlil olması, eyni zamanda dünyasını dəyişməsi dünyamız üçün xüsusən də Azərbaycan üçün böyük bir məsələyə çevrilib. Bunların bir neçə səbəbi var. Bizi daha çox Azərbaycan və onun paytaxtı Bakı maraqlandırdığına görə çalışarıq ki, fikirlərimizi bu yöndə və istiqamətdə çatdıraq.

Azərbaycanda bilirsiniz ki, son illər yol strukturu, infrastrukturu Avropa səviyyəsinə qaldırılıb. Ölkənin müxtəlif qərb, şimal, cənub istiqamətində dünya standartlarına cavab verən traslar, avtomagistrallar, ikitərəfli yollar salınıb və onların təhlükəsizliyi ilə bağlı müxtəlif texniki vasitələr yolboyu düzülüb. Amma insanların idarə etdiyi avtomobillər artıq ötən əsrin bir çox sovet istehsalı olan köhnə tipli avtomobillərdir.

Ardı Səh. 7

# Terror kimi yol qəzaları - ARAŞDIRMA



Əvvəli-Səh-6

Xüsusən də yük maşınlarının keyfiyyəti çox bərbad gündədir və bu da istər-istəməz qəzaların çoxalmasına səbəb olub. Avtoqəzalarda iştirak edən maşınlara baxsanız və o maşınlarda hansı tərəfdə ki, insanlar dünyasını dəyişir, o həmin maşınlar köhnə texnologiya ilə istehsal olunmuş sovet Rusiya və bir çox zəif metala malik materiallardan istifadə olunmuş Çin, Türkiyə və İran maşınlarıdır. Bu maşınların içərisində nə qoruyucu vasitələr, yeni, hava yastıqları sərnişin və sürücü üçün və deformasiyaya uğramaması üçün digər texnologiyalar yoxdur. Bu da istər-istəməz qəzalar zamanı insanların məhvinə aparıb çıxaran səbəblərdən biridir.



Üstəlik, ekoloji cəhətdən də bu maşınlar pis gündədir. Onların materialları artıq 3-5 ildən sonra maşın da hərəkət etdiyinə görə deformasiyaya uğrayır və amortizasiya problemləri yaranır. Bu zaman bu maşınların materialları kövrək olur. Kiçik bir qəza belə maşının məhvinə aparıb çıxarır.

İkinci səbəb həm paytaxtda, həm Azərbaycanda da sürət həddinin və məsafələrin qorunmamasıdır. Fikir versəniz istər tıxacda, istər magistralda insanlar az qala bir-birinə yapışaraq maşın idarə edirlər, üstəlik də bir-birinin böhsinə sürətlə maşınların idarə edilməsini görürük. İndi yaxşı ki, şəhərimizin və magistralın çox hissəsində videoregistratorlar və digər texniki avadanlıqlarla sürət həddini keçən sürücüləri böyük məbləğdə cərimələyirlər. Amma, yenə də artıq sürücülər üç dəfə eyni yolu gedəndən sonra bilirlər ki, harada videomüşahidə var, harada dövlət yol polisinin postları və maşınları var, onlar arasında məsafədə bir-birinin böhsinə sürətlə maşınları idarə edirlər.

Xüsusən də Bakının dar, indiki nəqliyyat sıxlığı üçün hesablanmamış yolları istər sürücülərin, istər piyadaların məsuliyyətsiz hərəkətləri, səkilərdə və yol qıraqlarında saxlanılan digər nəqliyyat vasitələri avtobus sürücülərinin məsuliyyətsiz idarə etməsi bu qəzaların sayının həddindən artıq çoxalmasına səbəb olub.

Əlbəttə, statistikaya görə, əslində xarici, Avropa və qərb ölkələrində olan qəzalar zamanı insanların xəsarət alması, sonradan əlil olması o cümlədən də ölüm faktı şərq ölkələrinə və Azərbaycana nisbətən bəzən birə on qat artır. Baxmayaraq ki, orada da var, amma oradakı nəqliyyat vasitələri həm üç ildən bir dəyişilir, təzələnir, ən azı beş ildən bir təzələnir, həm də maşının özündə aktiv və passiv qoruyucu vasitələr olduğuna görə həm sərnişin, həm də sürücülərin hava yastığı, yan yastıqları, qabaq yastıqları qoruyucu yastıqlar avtomatik yastıqlar olduğuna görə və tormozlanmada elektron vasitələrdən istifadə edildiyinə görə qabaq və arxa radarlar maşında eyni zamanda xətlərdən çıxmamaq üçün xüsusi müşahidə cihazları olduğuna görə onlarda həm qabaqlayıcı tədbir olaraq qəzalar zamanı az itkilər müşahidə olunur, həm də eyni zamanda insanların bir-birinə, yol mədəniyyətinə xüsusi riayət etmək, bir-birinə kömək etməsi kimi faktlar onlarda qəzalar zamanı daha az itkilərə səbəb olur. Azərbaycanda isə fərqlidir. Biz qızğın millətik, Qafqaz millətiyik və fikir verin, siqnal, əyləc və təkərin səsindən şəhər evlərində belə qalmaq olmur.

Eyni zamanda, Azərbaycan elə bir ölkədir ki, burada aftoşluq, ictimai modaya, dəbə çevrilib və avtoşlar özləri cinayət törətsə də onların ətrafında olanlar bunu alqışlayırlar, videoya çəkirlər, sosial şəbəkələrdə arsızcasına paylaşırlar. Bu ictimai tərbiyəsizlik əlbəttə ki, bu qəzaların törənməsinə səbəb olur. Bir ölkədə ki, toyda avtoşluq edib qəza törədib yaxın adamlarına mane olurlar, təzə evlənənlərə problem yaradırlar, insan ölümü faktı ilə toyu yasa çevirirlər. O ölkədən siz nə gözləyəcəksiniz?! Bir ölkədə ki, avtoş mahnısı ifa olunur, avtoşlar qəhrəman səviyyəsinə qaldırılır, o cəmiyyətdən nə gözləmək olar?! Bu baxımdan da bizdə böyük problemlər var.

Həm yol hərəkəti mədəniyyəti, həm sürücülərin və piyadaların yol mədəniyyəti, davranışı, həm yol nəzakəti baxımından çoxlu maarifləndirici işlər aparılmalıdır. Bizdə bu kimi tədbirlərə önəm verilmir. Bu mənada qəzalarda milyonlarla, bəzən milyardlarla Azərbaycanın büdcəsinə ziyanlar dəyir. Yol infrastrukturu məhv olur, elektrik dirəklərindən tutmuş yol hərəkətini tənzimləyən işarələrə qədər, xüsusi ayırıcı divarların məhv edilməsinə qədər, yolların məhvinə qədər müxtəlif iqtisadi ziyanlar görürük. Qəzalar zamanı ölənlərin uşaqlarına pensiyalarından tutmuş, eyni zamanda əlil olan şəxslərin müalicəsi və dövlət hesabına pensiya ilə təmin edilməsi, onların sosial məişət problemlərinin həllinə qədər yüzə yaxın problem bir qəzada yaranır.



Mən, hələ sığorta şirkətlərinin, avtomobilin ətraf mühitə vurduğu ziyanı demirəm. Hər qəzada ətrafa dağılan yanacaq sürtük materiallarını demirəm, metalloma çevrilən nəqliyyat vasitələrini demirəm. Yəni, bu baxımdan bizim yol qəzaları ilə bağlı yalnız orada adam ölüb, qəza olub deyə düşünməməliyik. Ona kompleks şəklində yanaşmalıyıq və ictimai birliklərlə dövlət qurumları bu yöndə maarifçilik işlərini aparmalıdır.

İl ərzində əgər məktəblərdə gənclər, tələbələr arasında 100 maarifçilik lahiyəsi həyata keçirilsə hər şey daha yaxşı olar. Həmin o avtoşlar arasında ki, Memar Əcəmi metrosunun kruqunda olurlar, Neftçilərdə və digər zonalarda biz bunları görürük. Bunların qarşısını almaq üçün mütləq maarifçilik lahiyələri həyata keçirmək lazımdır. Olmasın 10, 20, 30, 100 qəzaya xərclənən pullar, yəni, burda həkimlər, təcili yardım maşınları, yol polisləri, qəza xidməti, nəqliyyat strukturunda çalışan əməkdaşlar hamısı bir qəzada cəlb olunurlar və xərclənən pulu verin ictimai təşkilatlara və yaxud KİV-ə, sosial layihə olaraq onları işlədin, onlar da cəmiyyəti maarifləndirsinlər.

Son vaxtlar, reklam olmasın deyə adını çəkmirəm. Bir çox xaricdən gələn qlobal şirkətlər var ki, Azərbaycanda həm taksi xidməti, həm də sürətli yemək daşıma xidməti ilə məşğul olurlar. Motosikletlərdə isə dəhşətli qəzalar olur. Bu qədər insanlar ölür, bunların yaxınları, ailə üzvləri də onların içindədir. Bu millət bu qədər məhv olur".



**Nəqliyyat eksperti Elməddin Muradov:** "Yol nəqliyyat hadisələrinin baş verməsinin müxtəlif səbəbləri var və bu səbəblər içərisində əsas piyadalar və piyadaların məsuliyyətsizliyidir. Çünki Bakı şəhəri üzrə piyada vurmaların sayı artıb. Eyni göstərici respublika üzrə də müşahidə edilməkdədir. Piyada vurmalar, piyadaların ölümü ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı artır. Səbəblərə nəzər salsaq nə baş verir, piyadaların məsuliyyətsizliyini birmənalı şəkildə qeyd edə bilərik, məsuliyyətsizlik edirlər, yol hərəkəti qaydalarını pozurlar, işıqforlara əhəmiyyət vermirlər, keçidlərdən istifadə etmirlər, sürətli yollarda özlərini maşınların qabağına atırlar, risk edirlər. Bu risklər də çox vaxt ölümlə, faciə ilə nəticələnir.

Amma gəlin görək piyadalar əsasən nə vaxt vurulur? Gecə vaxtı qaranlıqda. Niyə vurulur? İşıqlandırma yoxdur. Bəs, bu kimin günahıdır? Bu dövlət qurumlarının günahıdır. "Azərişığ"ın, rayon icra hakimiyyətinin, Bakı şəhər İcra Hakimiyyətinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin bunların hamısının günahıdır, hamısının səhvidir. Cənab Prezident bunu 4 il bundan qabaq tapşırıb ki, bütün küçələr hətta məhəllədaxili yollar işıqlğandırılsın. İşıqlandırılırmı? Xeyr. Sanki onlara belə bir söz deyilməyib. Yəni, piyada üçün şərait yaratmaq lazımdır, təhlükəsiz şərait. Təhlükəsiz mühit yaratmırlar, sonra da belə hadisələr baş verir.

O hadisələrin baş verməməsi üçün ilk növbədə təhlükəsizlik tədbirlərini gücləndirməliyik. Digər yol nəqliyyat hadisələri sürət həddini aşması, ötmə manevr qaydalarının pozulması ilə bağlıdır. Kim aşır bu sürət həddini? O yollarda qanunsuz və yaxud da qanuni taksi fəaliyyəti ilə məşğul olanlar. Onlar radarların, kameraların yerlərini dəqiq bilirlər və bu baxımdan da harada radar varsa sürət həddini azaldırlar,harada yoxdursa yüksək sürətlə hərəkət edirlər. Yollarda əsasən ağır qəzalar elə o qanunsuz taksi fəaliyyəti ilə məşğul olanların iştirakı ilə baş verir.

Ümumilikdə, yol hərəkəti təhlükəsizliyi gücləndirilməlidir. Bununla bağlı bizim hüquqi əsaslarımız da var. Ortada Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş 2019-2023-cü illəri əhatə edən "Yol Hərəkəti Təhlükəsizliyi"nə dair Dövlət Proqramı var. Bu proqramın icrasından artıq üç ilə yaxın vaxt keçir. Lakin, ortada tutarlı bir dəyişiklik yoxdur.

Aidiyyəti qurumları silkələmək lazımdır, tədbirlər, təbliğat gücləndirilməlidir. Son vaxtlar yol hərəkəti təhlükəsizliyi ilə bağlı sosial şəbəkələrdə, televiziyalarda bir sosial çarx görürsünüzmü? Görmürsünüz. Çünki çəkən yoxdur, çünki ona pul xərcləmək istəmirlər. Layihə verirsən aylarla, illərlə hardasa yatıb qalır. Yolda, küçədə mənasız reklamlar, spirtli içkilərin, siqaretlərin, pampersin, geyim dəstlərinin reklamındandırsa, bir yerə də heç olmasa yol hərəkəti təhlükəsizliyi ilə bağlı bir çağırışlar vurulsun, şüarlar vurulsun. Yəni bu qədər deyilir, təkliflər verilir, əhəmiyyət verən yoxdur, işə ciddi yanaşan yoxdur. Əyani vəsaitlər ortaya qoymaq lazımdır. Məktəblərdə dərs keçilməlidir, ali məktəblərdə dərs keçilməlidir. Məsələyə çox ciddi və geniş prizmadan yanaşmaq lazımdır. Yoxsa formal olaraq "hə biz çıxdıq radioda danışdıq ki, təhlükəsizlik kəmərini taxın, taxacaqlar". Xeyr! Xüsusi bir mexanizm olmasa bu çətindir. İndi təhlükəsizlik kəmərini niyə çox adam taxır. Çünki, kameralarla çəkib cərimə yazırlar. Heç kim təhlükəsizliyini düşünmür, sürücülər qayda pozmağa daha çox meyllidirlər, nəinki qaydalar əsasında maşın sürməyə. Təbii ki, nəzarət mexanizmi gücləndirilməlidir, artırılmalıdır".

***Ayşən Vəli***

TƏHLİL

# Azərbaycan tolerantlıq nümunəsi və multikulturalizm mərkəzidir

***Azərbaycan hələ qədim dövrlərdən bəri müxtəlif dinlərin yayıldığı, fərqli inanc sahiblərinin sülh və əmin-amanlıq şəraitində yaşadığı məkan olub və ayrı-ayrı dinlərin mənsubları tarixin heç bir dönəmində ayrı-seçkiliyə məruz qalmayıblar. Bu gün də ölkəmiz bir çox sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də nümunəvi təcrübəyə malikdir və əbəs yerə deyil ki, hazırda Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən hesab olunur, hətta ölkəmiz bir çox beynəlxalq konfranslara ev sahibliyi edir.***

Bir sıra müsəlman ölkələrində dini münasibətlər baxımından xoşagəlməz proseslərin baş verdiyi, bəzi hallarda dindən siyasi məqsədlər üçün istifadə edildiyi günün reallığıdır. Müsəlman ölkələrinin bir çoxunda milli-mənəvi dəyərlər sisteminin zərərli ideoloji təsirlərə məruz qaldığı da təkzib edilməz faktlardandır. Azərbaycanda isə dini və milli məsələyə hər zaman həssaslıqla yanaşılıb, dini etiqad azadlığı təmin edilib, din sahəsinə xüsusi qayğı göstərilib və göstərilməkdədir. Azərbaycanda yaşayan bütün dini, hətta milli azlıqların belə hüquq və azadlıqlarının qorunması istiqamətində hər zaman ciddi addımlar atılıb və bu baxımdan da ölkəmiz nümunə hesab olunur.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət-din münasibətlərində keyfiyyətcə yeni mərhələ başladı. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Yeni mərhələdə təbii ki, Ümummilli Lider tərəfindən din sahəsinə xüsusi qayğı göstərildi, yeni ibadət ocaqları, məscidlər inşa olundu.

Müasir dövrdə bu siyasəti cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün Azərbaycanda din sahəsinə böyük diqqət və qayğı var. Dövlət ibadət yerlərini təmir və bərpa edir, dini icmalara xüsusi diqqət və qayğı göstərir. Azərbaycan xalqı indi öz milli və dini bayramlarını azad, sərbəst qeyd etmək hüququ əldə edib, ölkə vətəndaşlarının müqəddəs yerlərə ziyarətinin təşkili üçün şərait yaradılıb. Gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Əlbəttə ki, nəzərə çatdırılan müsbət məqamlarla, dəyişikliklərlə yanaşı, təəssüf ki, narahatlıq doğura biləcək məqamlar da bir zamanlar müşahidə olundu. Dövlətin dini etiqad və vicdan azadlığının təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlərdən öz məqsədlərini həyata keçirmək üçün istifadə etməyə çalışan, hətta buna cəhd edən qüvvələr də peyda oldular. Onlar ciddi cəhdlə qeyri-ənənəvi dini təlimləri təbliğ etmək niyyəti ilə, dini durumu gərginləşdirilmək məqsədi ilə, radikal dini təriqətlərin Azərbaycanda yayılması üçün əllərindən gələni etdilərsə də, buna imkan verilmədi. Çünki, müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycanda dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi müstəvidə tənzimlənməsi, radikal təriqətlərin və missioner təşkilatların fəaliyyətinin nəzarətə götürülməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabərliyi, dövlət təhsil sisteminin dünyəvi mahiyyət daşıması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dini təfəkkürün yayılmasının və təbliğinin qadağan olunması barədə müddəalar həmin sənəddə öz əksini tapdı. 1992-ci ildə qəbul olunan, sonrakı illərdə bir sıra ciddi dəyişikliklər edilən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dini mərkəzlərin, idarələrin, qurumların və tədris müəssisələrinin fəaliyyəti tənzimləndi. Dini qurumların dövlət qeydiyyatına alınması və fəaliyyətinə xitam verilməsi qaydaları müəyyənləşdirildi, onların mülkiyyət hüququ, istehsal və təsərrüfat fəaliyyəti, beynəlxalq əlaqələri, dinin məktəblə münasibəti, dini icmaların xeyriyyə və mədəni-maarif fəaliyyəti ilə bağlı məsələlərə aydınlıq gətirildi. Bir sözlə, dini məsələlərlə bağlı bütün istiqamətlərdə sui istifadə hallarına imkan verilmədi.



Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasına verilən böyük önəmin göstəricilərindən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun, 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə isə ölkəmizdə yeni təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasıdır. İnstitutun təsis edilməsində əsas məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Bu, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahəyə böyük diqqət və qayğısının göstəricisidir.

Azərbaycan Respublikasının din siyasəti beynəlxalq hüququn prinsip və normalarına, ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrə, Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəalarına, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ-hüquqi aktlara əsaslanır. Vicdan azadlığının təmin edilməsinə yönəlmiş qanunvericilik bazasının yaradılması, mütəmadi təkmilləşdirilməsi və uğurlu tətbiqinə nail olunması müstəqil Azərbaycan dövlətinin əsas fəaliyyət istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Azərbaycan Respublikası Konstitusiyasının 18, 25, 47, 48, 49 və 71-ci maddələrində dini etiqad və vicdan azadlığına geniş yer verilir. Din dövlətdən ayrı olsa da, dindar dövlətdən ayrı deyil, dövlət xalqın inancına hörmətlə yanaşır və milli-mənəvi dəyərlərin qorunmasına din siyasətinin tərkib hissəsi kimi baxır. Prezident dövlət başçısı kimi Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı, "Qurani-Kərim"ə də and içir. İslamın bir sıra rəmzləri ölkəmizin dövlət atributlarında da öz əksini tapır.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən hadisələr, mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər din və mədəniyyətlərin nümayəndələrinin adət-ənənələrinə, həyat tərzinə, etiqad və düşüncəsinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə davamlı sabitliyə və inkişafa nail olmağın qeyri-mümkün olduğunu göstərir. Müasir dövrdə dünyanın bir sıra dövlətləri terror və ekstremizmdən ciddi əziyyət çəkir. Terror hadisələri səbəbindən dünyanın bir çox bölgələrində ictimai sabitlik pozulur, vətəndaş qarşıdurması yaranır, milyonlarla insan qaçqın və didərgin həyatı yaşayır, tarixi memarlıq abidələri, dini ibadət ocaqları, məktəb və xəstəxanalar dağıdılır.

Son illər dünyada, regional və qlobal müstəvidə baş verən arzuolunmaz hadisələr, yüksək əxlaqi dəyərlərin təbliği, insanların birlik və bərabərliyinin təmin edilməsi, sülhün və əmin-amanlığın qorunması missiyasını daşıyan dinlərdən müasir dövrdə bir sıra hallarda siyasi məqsədlərin və məkrli niyyətlərin həyata keçirilməsində geniş istifadə edildiyini göstərir. Hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında, təəssüf ki, din amili xüsusi rol oynayır, beynəlxalq güclər bu vəziyyətdən məharətlə və böyük ustalıqla istifadə edirlər. Bu, müəyyən şəxslər və qurumlar tərəfindən yaradılan çoxsaylı hərəkat və cərəyanların timsalında özünü daha açıq büruzə verir.

Bu gün biz bir sıra hallarda terror hadisələrinin kökündə din amilinin dayandığının xüsusi vurğulandığının şahidi oluruq. Bir sıra dairələr insanlara sülh, əmin-amanlıq bəxş etmək missiyası daşıyan səmavi dinləri terrora zəmin yaratmaqda günahlandırırlar. Bu məsələdə daha çox haqsızlığa və tənqidə məruz qalan din elə məhz İslam dinidir. Təəssüf ki, məlumatsızlıq, cəhalət, qeyri-obyektiv təbliğat, bir sıra hallarda müsəlmanların qeyri-adekvat davranışları və digər səbəblərdən yüz minlərlə insanda İslam dini ilə bağlı zaman-zaman yanlış təsəvvür formalaşdırıbdır. Əslində, heç bir səmavi din, əlxüsus İslam dini zorakılığa, terrora və dini ayrı-seçkiliyə haqq qazandırmır. İslam meydana gəldiyi gündən digər dinlərin nümayəndələrinə hörmətlə yanaşmağı vacib sayıb, ayrı-ayrı dinlərin mənsublarına öz inanclarına uyğun yaşamalarına şərait yaradıbdır. Bu gün terrora ən sərt münasibət bildirən dinlərdən biri İslam, ondan ən çox əziyyət çəkənlər isə əfsus ki, elə müsəlmanlardır.

Əslində, İslam dini ən mütərəqqi dindir və dinimizdə insan amilinə xüsusi diqqət ayrılır, insanların sağlam həyat tərzinə, əxlaq prinsiplərinə əməl etmələrinin vacibliyinə, qarşılıqlı hörmət və etimad şəraitində, sülh şəraitində rahat yaşamalarına önəm verilir. Ölkəmizdə dövlət-din münasibətləri də məhz bu prinsiplər əsasında tənzimlənib və əbəs yerə deyil ki, Azərbaycan tolerantlıq nümunəsi, multikulturalizm mərkəzi hesab olunur. Halbuki, bir sıra müsəlman dövlətlərində əfsus ki, bunun əksini müşahidə edirik. Özünü islam ölkəsi adlandıran, yaxud hesab edən hansısa ölkədə radikal meyillər və davranışlar heç də bu dinin tələbləri, fəlsəfəsi ilə üst-üstə düşmür. İslam ölkəsi insanların qətli ilə, törətdiyi qətliamlarla öyünən, bunu dövlət siyasəti hesab edən ölkə ilə dostluq münasibətləri qura bilərmi? Xocalı kimi, insanlıq tarixində misli görünməmiş bir faciəni, qətliamı törədən, bunu etiraf edən, işğalçılıq siyasəti yürüdən ölkə ilə hərhansı bir islam ölkəsinin, müsəlman dövlətinin dostluğu mümkündürmü? Milyondan çox azərbaycanlını dədə-baba torpaqlarından, yurd-yuvalarından qovan, didərgin salan, qaçqınlıq həyatı yaşamağa məcbur edən işğalçı ölkə bir islam ölkəsinin dostu ola bilərmi? Təbii ki, ola bilməz. Əgər biz bunun əksini müşahidə ediriksə, deməli, həmin ölkənin islam dövləti, müsəlman ölkəsi olması sual və şübhə doğurur.

Müsəlmanlar üçün ən müqəddəs yerlərdən biri də onların ibadət etdikləri məscidlərdir. Hansıki, müsəlmanlar məscidlərini daim müqəddəs hesab etməklə yanaşı, həmin yerlərin təmiz saxlanması da vacib sayırlar, məscidin nəinki içərisini, hətta ətrafını belə göz bəbəyi kimi qoruyurlar. Məsələ birasındadır ki, 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızda yerləşən məscidlərdə erməni işğalçıları ev heyvanlarının, xüsusən, müsəlmanın haram, murdar hesab etdiyi donuzların saxlanmasına rəvac veriblər. Maraqlıdır, bütün bunların fonunda özünü müsəlman sayanlar müsəlman məscidlərində donuz saxlayan ermənləri necə dəstəkləyə bilər?

Hər zaman müsəlman həmrəyliyindən dəm vuran İran İslam Respublikasının Vətən müharibəsindən öncə də, 44 günlük müharibə dönəmində də, müharibədən sonrakı dönəmdə əhalisinin 95 faizi müsəlman olan, müsəlman ölkəsi olan Azərbaycanı deyil, müsəlman məscidlərində donuz saxlayaraq, müsəlmanın ibadət yerlərini təhqir edən, hətta dağıdaraq viran qoyan xristian erməniləri dəstəkləməsinə nə ad vermək olar? Bəs bu ölkənin iddia etdiyi müsəlman həmrəyliyi harda qaldı? Budurmu İranın müsəlmanlarla həmrəyliyi? Maraqlıdır, İranı Ermənistanla birləşdirən nədir ki, belə yaxınlıq nümayiş etdirir? Təbii ki, nümayişkaranə şəkildə ermənilərlə münasibətlər quran İran bir islam ölkəsi kimi görünmür.

# Azərbaycan tolerantlıq nümunəsi və multikulturalizm mərkəzidir

Özünü müsəlman həmrəyliyinin carçısı kimi tanıtmağa çalışan İran, qonşu ölkələrə, müsəlman ölkələrinə nə, daha dəqiq desək, hansı ideologiyanı, hansı məhsulu, nəyi ixrac edir? Bu gün Azərbaycana keçirilərkən aşkar edilən narkotik vasitələrin, psixiatrop maddələrin, qanunla qadağan olunmuş malların böyük əksəriyyətini İran ixrac edir. Suallar həddindən artıq çoxdur. Əvvəla, bu qədər narkotik vasitələr, qanunla qadağan olunan mallar necə İran İslam Respublikasında ola bilər? Axı bu ölkə islam əxlaqına, müsəlman əxlaqına sadiq olmalı və istifadəsi haram, qadağan olunmuş sayılan malların mübadiləsinə yol verməməli idi. Bir də bu yetməzmiş kimi, İrandan bu məhsullar Azərbaycana ixrac edilirsə, buna nə ad vermək olar?

Xatırlayırıqsa, ölkəmizdə müşahidə edilən bir sıra radikal cərəyanların da sonda İrandan qaynaqlandığı bəlli oldu. Dindən istifadə etməklə Azərbaycanda iğtişaş, qarşıdurma törətmək də İslam əxlaqına uyğundurmu? Bir ölkədə, özü də qonşu ölkədə, müsəlman ölkəsində qarışıqlıq, xaos, qarşıdurma, iğtişaş yaratmaq müsəlmanın əqidəsi ola bilərmi? Əlbəttə ki, ola bilməz. Çünki, İslam dini sülh, barış dinidir və insanların ən rahat yaşamasının vacibliyini tərənnüm edir, hansıki, biz bunu sözügedən qonşu ölkədə müşahidə edə bilmirik.

Ölkəmizdə hansısa radikal qruplaşmaların peyda ola bilməsi, fəaliyyət göstərməsi mümkünsüzdür. Çünki, bunun qarşısının alınmasında dövlətimiz maraqlıdır və hər zaman bu məsələ nəzarətdə saxlanılır. Ona görə nəzarətdə saxlanılır ki, ölkədə sağlam olmayan dini münasibətlər, islam əxlaqına yad olan radikal meyillər olmasın. Ən vacibi isə cəmiyyətdə xaos, qarşıdurma, iğtişaş törədilməsinə rəvac verilməsinin qarşısının alınmasıdır. Azərbaycan nəinki ölkə daxilində, heç bir xarici ölkədə belə radikal dini cərəyanların yaranmasının tərəfdarı deyil. Ölkəmizin hansısa bir ölkənin daxilində dini radikal cərəyan yaratması, dindən suai istifadə etməsi hallarına bircə dəfə də rast gəlinməyib. Bircə dəfə də olsun Azərbaycana qarşı bu mənada ittihamlar belə səsləndirilməyib. Bax bu mənada ölkəmizin dinə yanaşması daha doğru, daha dürüst, daha düzgündür və radikal dini cərəyanların yaranmasına meyilli olan, buna rəvac verən ölkələrdən də ölkəmizin fərqi, üstünlüyü bundadır. Bəli, məhz buna görə də Azərbaycan tolerantlıq nümunməsi və mültikulturalizm mərkəzi kimi qəbul edilir.

Bu gün Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları ölkədə ekstremizmin və radikallıq meyillərinin qarşısının alınması məqsədilə ardıcıl və sistemli tədbirlər həyata keçirir. Radikal təriqətlərin ölkəmizdə yayılmasına imkan verilməməsi, xaricdə fəaliyyət göstərən silahlı birləşmələrin tərkibində döyüşən gənclərlə bağlı həyata keçirilən tədbirlər, onların ölkəyə dönüşü zamanı həbs edilmələri bu fikri bir daha təsdiq edir. Təsdiq edir ki, Azərbaycanda radikal dini meyillərin nəinki yayılmasına, heç yaranmasına da imkan verilməyəcək. Çünki, buna zəmin belə yarada biləcək məsələlər vaxtında araşdırılır, qabaqlayıcı tədbirlər görülür. Məqsəd isə birdir və bu da cəmiyyətimizdə sağlam dini münasibətləri qoruyub saxlamaqdan, Azərbaycanın tolerantlıq və mültikulturalizm nümunəsi olaraq bundan sonra da qalmasını təmin etməkdən ibarətdir. Bu gün qarşıda duran əsas vəzifə bu zəngin sərvəti qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir. Bu, eyni zamanda hər bir Azərbaycan vətəndaşının üzərinə düşən tarixi məsuliyyətdir.

***İnam Hacıyev***

# "Media və Hüquqi Maarifləndirmə" mövzusunda tədbir keçirilib







***Baş Prokurorluq və Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə prokurorluq orqanları ilə kütləvi informasiya vasitələri arasında işgüzar əlaqələrin möhkəmləndirilməsini, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılmasını, habelə məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə prokurorluğun inzibati binasında "Media və Hüquqi Maarifləndirmə" mövzusunda tədbir keçirilib.***



SİA-nın məlumatına görə, Baş prokurorun müavini Heydər Məmmədov və Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun çıxış etdiyi tədbirdə ölkənin bir çox media nümayəndələri iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımızın 44 gün ərzində yenilməz Azərbaycan Ordusu tərəfindən azad olunmasından söz açan Baş prokurorun müavini, qısa müddətdə həmin bölgələrdə həyata keçirilən infrastrukturun bərpası ilə bağlı quruculuq işlərinin sürətlə davam etdirildiyini, I və II Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərə və veteranlara xüsusi dövlət qayğısının göstərildiyini deyib. H. Məmmədov iştirakçılara prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar barədə məlumat verib.

Prokurorluq orqanları və kütləvi informasiya vasitələri arasında mövcud işgüzar əlaqələrdən bəhs edən Heydər Məmmədov media ilə kommunikasiyanın gücləndirilməsinin zəruriliyi vurğulanıb, zamanın tələbinə uyğun olaraq prokurorluq orqanlarının sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində mühüm addımlarım atıldığını, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılmasının əhəmiyyətli olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Baş Prokurorluq və Medianın İnkişafı Agentliyi arasında mövcud sıx əməkdaşlıqdan məmnunluğunu bildirərək prokurorluqəməkdaşlarının iştirakı ilə gələcəkdə də dəyirmi masa və görüşlərin təşkilinin əhəmiyyətli olacağını qeyd edib.

Media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac olduğunu qeyd edən Əhməd İsmayılov dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında kommunikasiyanın modern tələblər səviyyəsinə çatdırılması ilə bağlı kompleks tədbirlər görüldüyünü, prokurorluq orqanlarının bu fəaliyyətdə aktiv iştirak etdiyini nəzərə çatdırıb.

Daha sonra tədbirdə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə "Prokurorluq orqanları ilə kütləvi informasiya vasitələri arasında mövcud münasibətlər və perspektivlər", Medianın İnkişafı Agentliyinin Hüquq və insan resurslarının idarə edilməsi departamentinin direktoru Rəqsanə Kərimova "İstintaq prosesinin mediada obyektiv işıqlandırılması və balanslı təqdimatı" mövzusunda çıxışlar ediblər.

Tədbir zamanı, həmçinin, Baş Prokurorluq və Medianın İnkişafı Agentliyinin ilk birgə layihəsi olan "Media və Hüquqi Maarifləndirmə" vəsaiti Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov tərəfindən iştirakçılara təqdim edilib.

Daha sonra prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulması ilə bağlı fikir mübadiləsi aparılıb, iştirakçılar tərəfindən təkliflər səsləndirilməklə, bu məzmunlu tədbirlərin informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilib.

# Ermənistanın "qırğıları" və "sülh göyərçinləri"

*"Qolos Armenii" nəşrində "Ermənistanda müharibə və məğlubiyyət Ter-Petrosyanın vaxtında proqramlaşdırıldı, Paşinyan zamanında həyata keçirildi" sərlövhəli yazı dərc olunub.*



Belə ki, ötən əsrin 34-cü ilindən 90-cı ilinədək "Kommunist", daha sonra "Qolos Armenii" adı ilə nəşr olunan qəzet Ter-Petrosyan və Paşinyan arasında paralellər apararaq, nə qədər qüsurlu görünsə də, birinci prezident Levon Ter- Petrosyanın 23 il əvvəl və baş nazir Nikol Paşinyanın son üç il ərzində səsləndirdiyi bəyanatları "təhlil edərək" belə bir qənaətə gəlir: onların hər ikisi "şüurlu şəkildə başqalarının maraqları ilə diktə edilən antierməni siyasəti yürüdüb".

"Qolos Armenii" Levon Ter- Petrosyanın 1998-ci ilin fevralında Ermənistanın prezidenti postundan istefa verərkən işlətdiyi "sülh partiyası gedir, müharibə partiyası gəlir" sözlərinə istinad edir və yenə də üzünə vətənpərvərlik niqabını çəkir (Samuel Consonun XVIII əsrin 70-ci illərində Londondakı Ədəbiyyat klubunda işlətdiyi məşhur aforizm yada düşür: "Vətənpərvərlik əclafların son sığınacaq yeridir").

Əlbəttə, nəşr həmin "antierməni siyasətinin" Ermənistanın siyasi kuluarlarında qəfil peyda olmasının səbəbləri barədə yazmağı "unudur". İddialı qəzet onu da "unudur" ki, 1988-ci ildə separatçılıq dalğası üzərində hakimiyyətə gələn, hakimiyyəti illərində Azərbaycanın tarixi ərazilərinin işğalında hərəkətverici qüvvə olan, azərbaycanlılara qarşı misli görünməmiş qəddarlıqla törədilən amansız cinayətlərin ən azı siyasi məsuliyyətini daşıyan Ter- Petrosyan situasiyanın bu şəkildə qala bilməyəcəyi qənaətinə beynəlxalq hüquqa və yaxud Azərbaycanın ərazi bütövlüyünə hörmətindən irəli gəlmirdi. Bu qənaət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunun ilk diplomatik qələbəsindən - 1996-cı ilin sentyabrında, ATƏT-in 52 Avropa dövlətinin yüksək səviyyədə təmsil olunduğu Lissabon sammitində Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsinin birmənalı dəstəklənməsindən sonra çıxarılan nəticə idi.

Xatırladaq ki, Lissabon sammitində Prezident Heydər Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyünü və erməni millətindən olan vətəndaşlarının təhlükəsizliyini özündə ehtiva edən bəyanatı Ermənistan dövləti istisna olunmaqla, sammit iştirakçısı olan ölkələr tərəfindən dəstəklənmişdi. Bundan dərhal sonra Levon Ter-Petrosyanın rəhbərlik etdiyi erməni nümayəndə heyəti "problemin ancaq öz müqəddəratını təyinetmə prinsipi ilə həll olunmasında" təkid edən bəyanat yaymaqla avantürist siyasətin dəyişmədiyini göstərirdi.

"Qolos Armenii" Nikol Paşinyanın bu il sentyabrın 21-də erməni cəmiyyətinə "dəqiq icra edilən radikal, antierməni siyasəti"ni şərtləndirən fikirlərini xatırladır və bu fikirlərin "hansı bulaqdan su içdiyini" yada salır. Bunun üçün Levon Ter-Petrosyanın 1997-ci ilin sentyabrında dərc edilən "Müharibə, yoxsa sülh?" məqaləsini təhlil edilir, birinci prezidentin mövcud status-kvonunun saxlanmasının qeyri-mümkünlüyünü etiraf etməsini, "Dağlıq Qarabağın" Azərbaycanın tərkibində saxlanılması ilə sülhə yaxınlaşmasını ifadə edən fikirlərindən sitat gətirir: "Müəyyən ölçüdə bu, bütün tərəfləri qane etsə də, böyük ölçüdə heç kimi qane etməyə də bilər". O, fikrini əsaslandırmaq üçün paralellər aparırdı: "Oxşar hadisə Bosniyada baş verdi və serblər hər şeyi itirdi. Biz maksimum bir-iki il dirəniş göstərə bilərik..."

Bu etiraf karyerasını "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi" üzə- rində qu- ran müharibə caniləri - baş nazir (Robert Koçaryan), müdafiə naziri (Vazgen Sarqsyan), həmçinin milli təhlükəsizlik naziri (Serj Sarkisyan) üçün siyasi intihara bərabər idi və üç əbləh beləcə birləşərək onun istefasını gerçəkləşdirdi. Artıq 1998-ci ilin martında Robert Koçaryan prezident idi, lakin istefaya göndərilən prezidentin Dağlıq Qarabağla bağlı fikrini bölüşən Karen Dəmirçyan Ermənistan parlamentinin sədri postunda qalırdı. 1999-cu il oktyabrın 29-da Nairi Unanyanın başçılığı ilə beş nəfərdən ibarət silahlı qrupun parlamentin iclasını güllələbaran etməsinin Dəmirçyanın qətlinə verilən fərmanın icrası ilə bağlı olduğuna bu ölkədə artıq heç kim şübhə etmir.

Bütün bunlardan sonra "Qolos Armenii" birinci prezidentin 1998-ci ilin fevralında istefaya gedərkən etdiyi son xəbərdarlığı xatırladır: "Ermənistan gələcəkdə onların (Azərbaycanın- red.) təklif edəcəkləri ən pis variantla razılaşmalı olacaq".

Məsələlərə bu kontekstdən yanaşan nəşr 2020-ci il sentyabrın 27-də başlayan və Azərbaycanın tam qələbəsi ilə bitən ikinci Qarabağ Müharibəsindən sonra "sülh göyərçini"nə dönən baş nazir Paşinyanın cəhdlərini "antierməni siyasətinin nümunəsi" kimi göstərir. Halbuki indiki "sülh carçısı" iki il əvvəl işğal altındakı Xankəndinə növbəti "səfəri" zamanı "Qarabağ Ermənistandır və nöqtə" deyəcək qədər həyasızlaşmışdı. Nikol bu sözləri deyərkən əlləri körpələrin, qadınların və qocaların, minlərlə əliyalın insanın qanına batan və hətta bununla qürrələnəcək səviyyədə olan Koçaryan və Sarkisyandan bir o qədər də fərqlənmirdi...

Son sözü "Dəmir yumruq" dedi və endirilən o yumruğun nəticələrini Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il sentyabrın 28-də "France-24" televiziya kanalına müsahibədə bir daha belə xatırladırdı: "Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır".

## "Rus sülhməramlılarının xəritədə düzəliş etməsi müsbət addımdır"

***"Rusiya sülhməramlılarının Qarabağdakı özlərinin məsuliyyət zonasını əks etdirən xəritəni ləğv edərək ümumi Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi təqdim etmələri yaxşı bir haldır.***

Bu, həm də üçtərəfli birgə bəyanatın ruhuna da uyğunluq təşkil edir. Eyni zamanda, həm də Rusiya tərəfi dəfələrlə Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması ilə bağlı bəyanatlar səsləndirib". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Onun sözlərinə görə, Qarabağ Azərbaycanın ərazisinə daxildir: "Bütün dünya dövlətləri Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul edir və Vətən müharibəsinin nəticələri ilə hesablaşırlar. Bu xüsusda rus sülhməramlılarının da xəritədə bu cür düzəliş etməsi müsbət bir addım kimi qiymətləndirilir".

***Gülyana***



*"Hadrutun işğaldan azad olunması olduqca vacibdir, Minsk Qrupunun məşhur Madrid prinsipləri kontekstində. Çünki Hadrut birbaşa olaraq keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən ən iri yaşayış məntəqələrindən biridir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Fərhad Məmmədli deyib.*



## "İndi tarixi ədalət öz yerini tapdı" - POLİTOLOQ ŞƏRH ETDİ

Politoloq vurğulayıb ki, bu, yol ayrıcıdır, eyni zamanda, cəbhənin yarılması demək idi və bununla da məhz xatırlayırsınızsa, xarici işlər nazirlərinin görüşünün raundunda Moskvada görüşdən öncə bu xəbərin verilməsi məhz danışıqlarda Madrid prinsiplərinin tarixə yollanması prosesinin başlanğıcı idi.

"Cənab Prezident də xüsusi olaraq vurğuladı ki, həm tarixi kontekstdən, həm müasirlik kontekstindən nə Dağlıq Qarabağ Muxtar Vilayəti məntiqi var, həm də hər bir şey, hansıki illərlə yığılıb qalmışdı, sənədlərdə münaqişəyə yanaşmanın konteksti tamamilə dəyişdi. Hadrutda məscidin salınması o deməkdir ki, oraya məhz azərbaycanlılar qayıdacaqdır, azərbaycanlılar orada yaşayacaqdır. İkinci çox vacib olan məqam, hansıki cənab Prezident onu vurğuladı, proses dönməzdir. Yəni, bunun tarixi kökləri də bəllidir və cənab Prezident bunu bildirdi. Hadrutun məhz ermənilər tərəfindən xüsusi olaraq istifadə edilməsi, orada olan ermənilərin qaçqın formasında təqdim olunması ermənilər tərəfindən çox ciddi şəkildə istifadə olunur. Amma biz sosial şəbəkələrdən də görürük ki, Hadrutda olan ermənilərin böyük əksəriyyəti bu qaçqın ermənilər idi. Yəni, onların hamısı danışdıqda deyirlər ki, 25 il, 30 il bundan qabaqdan gəlib yaşayıram orada.

Digər tərəfdən, tarixi aspektdə bəllidir ki, ermənilər haradan orada peyda olublar. Bəllidir ki, Rusiya-İran müharibəsindən sonra onlar orada peyda olublar və yerli əhalini sıxışdırıb çıxararaq, bu torpaqların Rusiya, çar imperiyası tərəfindən onlara bağışlanması ilə orada məskunlaşıblar. İndi tarixi ədalət də öz yerini tapdı. Cənab Prezidentin də hər zaman vurğuladığı iki məqam var, beynəlxalq hüquq və tarixi ədalət Azərbaycanın tərəfindədir", deyə politoloq Fərhad Məmmədli bildirib.

***İnam Hacıyev***

*Torpaqlarımızın erməni işğalı zamanında bu ərazilərə qeyri-qanuni səfər etmiş şəxslərin Azərbaycan qanunvericiliyi əsasındsa qara siyahılara salınmaları ilk fakt olmayıb. Bugünün özündə də Xankəndi və ətraf ərazilərə - Rusiya sülhməramlılarının fəaliyyət göstərdikləri bölgələrimizə qanunsuz səfərlər edən insanlar qara siyahıya salınırlar və onların Azərbaycan ərazilərinə daxil olmalarına qanuni tələblərə görə qadağan edilir. Belə insanlardan biri də israilli filoloq və politoloq Aviqdor Eskindir.*



# İsrailli filosof və politoloq Qarabağa qanunsuz səfəri haqqında

*Aviqdor Eskinin cavablarını səmimi qəbul etmək olarmı?*

### "Region ətrafındakı ərazi münaqişəsi kifayət qədər sadə şəkildə, sülhə köklənməklə həll oluna bilərdi"

SİA xəbər verir ki, sözügedən məsələ, eləcə də Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbə ilə bağlı caliber analitik informasiya mərkəzi müsahibə alıb və israilli filosof-politoloq bir sıra maraqlı məqamlara toxunaraq sualları cavablandırıb. 44 günlük müharibənin nəticələrinə necə qiymətləndirən Aviqdor Eskin bildirib ki, müharibə regionda güc balansını dəyişdi: "Ermənistan bu günkü gündə hərbi seçimə malik deyil. Qarabağın Azərbaycan ordusu tərəfindən tutulmayan hissəsi əslində rus sülhməramlıları tərəfindən nəzarət altına alınıb. Region ətrafındakı ərazi münaqişəsi kifayət qədər sadə şəkildə, sülhə köklənməklə həll oluna bilərdi. Lakin bugünkü gündə Ermənistanla Azərbaycan arasındakı gərginlik digər sərhədyanı ərazilərdə də baş verir, hansı ki, bu ərazilər atəşkəs xəttidirlər, ancaq bu sərhədlər də qarşılıqlı şəkildə tanınmırlar".

### "Azərbaycan sülh və iqtisadi təşəbbüslərdə unikal liderlik imkanlarına malik ola bilər"

Ermənistanın Azərbaycanla sülh sazişini imzalamaqdan imtina etməsi, həmçinin, kommunikasiyaların açılması, sərhədlərin deilimitasiyası və demarkasiyası və s. ilə bağlı problemlərin mövcudluğu barədə də münasibətini bildirən israilli siyasətçi və filoloq qeyd edib ki, müharibəyə qədər sülh prosesi daha çox Ermənistanın əlində idi. İndi Azərbaycan sülh və iqtisadi təşəbbüslərdə unikal liderlik imkanlarına malik ola bilər. O, hətta belə bir təklif də irəli sürüb ki, erməniləri Azərbaycana ziyarətə dəvət etmək olar və əsasən də Azərbaycanın keçmiş erməni sakinlərini. "Bu, bütün dünyada alicənablıq aktı kimi qiymətləndirilə bilər", deyə o bildirib.

Aviqdor Eskin Bakının icazəsi olmadan 2017-ci ildə həmin vaxtlar Qarabağın işğalı altında olan ərazilərinə qanunsuz səfəri ilə bağlı sualı da cavablandırıb.

"Mən onillərdir ki, publisistika və politologiya ilə məşğulam. Mənim müxtəlif dillərdəki minlərlə məqalələrim, çıxışlarım açıq və əlçatandır. Əgər mən bu və ya başqa regionda ekspert kimi situasiyanı araşdırıramsa, bu zaman mənim həmin regionu ziyarət etmək, bütün tərəflərlə söhbət etmək vəzifə borcumdur", deyə bu vasitə ilə vaxtilə atdığı qanunsuz addımına nədənsə (?) haqq qazandırmağa çalışdığı görünən israilli ekspert bildirib ki, o, son on beş ildə Cənubi Qafqaz mövzusu ilə az məşğul olmadığını, eləcə də araşdırmaları istiqamətində İsrailin mövqelərini gücləndirmək məqsədilə dostluq atmosferini yaratmaq niyyətin daşıdığını deyib.

### "Gürcüstanda mənim adımın qara siyahıya salınması heç kimin ağlına belə gəlməyib"

"2012-ci ildə mən Azərbaycanı ziyarət etmiş israilli jurnalistlərinin nümayəndə heyətinə rəhbərlik etdim. 2017-ci ildə Ermənistanı və Qarabağı ziyarət etmək təklifini alanda isə təbii ki, bunu qəbul etdim. Bu, tanışlıq ziyarəti idi. Azərbaycanın Qarabağı ziyarət edənləri qara siyahıya salması praktikası mənə məlum idi. Ancaq mən düşünürdüm ki, bu region üzrə fəaliyyət göstərən jurnalistlərə və ekspertlərə də aiddir. Məsələn, axı Vladimir Solovyovu heç kim qara siyahıya salmayıb.

Mənim Gürcüstanla bağlı analoji səriştəm var idi. Orada da Abxaziyanı və Cənubi Osetiyanı ziyarət edənlərə qarşı sanksiya praktikası mövcuddur. Lakin Gürcüstanda mənim adımın qara siyahıya salınması heç kimin ağlına belə gəlməyib. Ondan sonra mən Tbilisini otuz dəfədən çox ziyarət etmişəm. Yeri gəlmişkən, mən həmişə və hər yerdə gürcü qaçqınlarının geri dönmək hüquqları və Gürcüstaınn ərazi bütövlüyü barədə danışmışam", deyə İsrailin filosofu və politoloqu bildirib.

### Aviqdor Eskin bildirib ki, Azərbaycanı ziyarət edə bilməmək mümkünlüyünü anlaşılmazlıq kimi görür (?)

Jurnalistin onun yenidən Azərbaycanı ziyarət etməyi istəməsi, Azərbaycan XİN-nin standart prosedurunun mövcudluğu, yəni qara siyahıda olan şəxslərin adlarının siyahıdan çıxarılması üçün rəsmi üzrxahlığın tələb olunması ilə bağlı, eləcə də buna haz Mənim Gürcüstanla bağlı analoji səriştəm var idi. Orada da Abxaziyanı və Cənubi Osetiyanı ziyarət edənlərə qarşı sanksiya praktikası mövcuddur. Lakin Gürcüstanda mənim adımın qara siyahıya salınması heç kimin ağlına belə gəlməyib.ır olub-olmaması ilə əlaqəli sualını cavablandıran Aviqdor Eskin bildirib ki, Azərbaycanı ziyarət edə bilməmək mümkünlüyünü anlaşılmazlıq kimi görür. "İstisna etmirəm ki, mənim səriştəm hər iki tərəfin xeyrinə olan regional sülh təşəbbüslərinə səmərəli olar. Bu kontekstdə mənim Bakını siyasət etməyim təbii olardı. Yenidən Azərbaycanın cənubunda, dağların zirvəsində yerləşən Yardımlının Perimbel kəndində olmağıma sevinərdim. Meditasiya və dua üçün ən mükəmməl yerdir", deyə israilli filosof və politoloq verilən sualı cavablandırmaqdan yayınıb.

*Rövşən RƏSULOV*

# Komitə sədri: "Qars müqaviləsi bağlandığı vaxtdan Ermənistanda birmənalı qarşılanmadı"

*"Qars müqaviləsinin bağlanmasından 100 il ötür. Qars müqaviləsi 16 mart 1921-ci il tarixdə Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il 13 oktyabr 1921-ci il tarixdə Azərbaycan, Ermənistan və Gürcüstan SSR-nin daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsidir.*



Müqavilə 11 sentyabr 1922-ci il qüvvəyə minmiş və müddətsizdir". Bunu SİA-ya Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib.

Onun sözlərinə görə, Qars müqaviləsinin tarixi hüquqi əhəmiyyətinə qiymət verərkən xüsusi ilə Naxçıvan Muxtar Respublikasının məhz Azərbaycanın tərkibində qalmasına hüquqi zəmin yaratdı: "Heç kimə sirr deyil ki, zaman-zaman işğalçı Ermənistan Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddiaları ilə çıxış etmişdir. Əsrin əvvələrində bu cəhdlər intensiv şəkildə irəli sürülmüş lakin Naxçıvan əhalisinin ciddi müqaviməti və Türkiyə ilə bağlanmış Qars müqaviləsi nəticəsində Azərbaycanın tərkibində qalmışdır.

Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünü və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirərək demişdir: "Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".

Türkiyəli diplomat, sabiq səfir Şükrü Ələkdağın Qars müqaviləsi ilə bağlı Ümummilli Lider Heydər Əliyevin Ermənistan tərəfindən Naxçıvana planlaşdırılan irimiqyaslı hücumun qarşısının alınmasında Qars müqaviləsinin rolundan danışarkən söylədiyi aşağıdakı fikirlər çox maraqlıdır. Ş.Ələkdağ: "Ermənistan 1992-ci il mayın 8-də Şuşanı işğal edən zaman Ermənistan paralel olaraq Naxçıvanın Sədərək bölgəsinə də hücum etmiş, erməni silahlı birləşmələri sərhədlərimizin 10 kilometrliyində hərbi əməliyyata başlamışdılar. O zaman rəhmətlik Heydər Əliyev Türkiyədən yardım istədi və prezident Süleyman Dəmirəl bu tələblə bağlı hökumətin toplantısını çağırıb. Hökumət Qars və Moskva müqavilələrini nəzərə alaraq Ermənistan hökumətinə xəbərdarlıq etmək qərarına gəldi və baş nazirin müavini Erdal İnönü Ermənistanın xarici işlər naziri ilə əlaqə yaradaraq bildirdi ki, bu hərəkətin cavabı çox ağır olacaq. O dövrün quru qoşunları komandanı da türk qoşunlarının hazır vəziyyətə gətirildiyini elan etdi və Ermənistan Naxçıvana qarşı hücumları dayandırmağa məcbur oldu. Bununla da Qars müqaviləsi Naxçıvanın Ermənistanın hücumlarından qorunmasında son dərəcəli mühüm rol oynamışdır".

Qars müqaviləsi bağlandığı vaxtdan Ermənistanda birmənalı qarşılanmadı. Ermənilərin bir qrupu bu müqavilənin erməni xalqının iradəsini ifadə etmədiyini bildirdi. Onlar daha çox isə Sever müqaviləsinə üstünlük verirdilər. Təsadüfi deyil ki, o dövrlərdə bəzi "Sovet Ermənistanı" qəzeti kimi nəşrlərdə "Qars sülh konfransı" adlı yazısında bu danışıqları Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirilsə də əks mövqedə olan qüvvəllər də az deyildi.

Həmin dövrlərdə Təbrizdə çap olunan erməni qəzeti olan "Hayk" qəzetinin "Pərdə götürülmüşdür" adlı baş məqaləsində şanlı Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində belə dayana və hətta balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər deyə Qars müqaviləsinə mənfi münasibət bəsləmişdir. Belə nümunələr həddindən artıq çoxdur.

Beynəlxalq hüququn prinsiplərinə görə Qars müqaviləsinin ləğvinə yönəlik cəhdlərin əsası varmı? Əlbətdə birmənlaı şəkildə demək olar ki yox. Qars müqaviləsi müddətsiz bağlanmış, çox tərəfli müqavilədir. Beynəlxalq hüququn prinsiplərinə əsasən müqaviləni imzalayan şəxlər dövlətləri tərəfindən mandat almışdır. Müqavilə radifikasiya edilmişdir. Müqavilələrin mübadiləsi həyata keçirilmişdir.

Lakin Ermənistanın daha çox istinad etdiyi Sever müqaviləsi Qars müqaviləsindən fərqli olaraq Türkiyə Böyük Millət Məclisi tərəfindən radifikasiya edilməmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Şuşa şəhərinin adı ilə tarixə türk dünyasının iki böyük şəxsiyyəti tərəfindən imzalanmış Şuşa Bəyannaməsində bir daha Qars müqaviləsinə sadiqliyi öz təsdiqini tapmışdır.

### ŞUŞA BƏYANNAMƏSİNDƏ QARS MÜQAVİLƏSİ

15 iyun 2021-ci il tarixdə Şuşa şəhərində Azərbaycan və Türkiyə dövlət başçılarının imzaladığı Şuşa bəyannaməsinin preambula hissəsində qeyd edilir ki, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edirik. Tarixi Qars müqaviləsini imzalayan Behbud Ağa Şaxtaxtinskini rəhmətlə anırıq!

# 44 günlük Vətən müharibəsi qüruru tariximizdir!

## Qəbələdə şəhid Sərvan Eyyubovun ildönümü qeyd edilib




Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçərək şəhadətə ucalan Vətən müharibəsi şəhidi Eyyubov Sərvan Yusif oğlunun ildönümü münasibətilə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhidin təhsil aldığı məktəbin kollektivi onun məzarını ziyarət edərək, üzərinə gül dəstələri düzmüş, xatirəsi anılaraq, ruhuna dualar oxunmuşdur. Şəhidin ailəsi mərasim iştirakçıları tərəfindən evlərində ziyarət edilmişdir. Ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

*Rəfiqə*

## Samuxda şəhid Elçin Dostuyevin ildönümü qeyd olunub





13 oktyabr 2020-ci il tarixdə torpaqlarımızın bütövlüyü uğurunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Kövər kənd sakini, İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksələn Elçin Murad oğlu Dostuyevin ildönümü məzarı önündə qeyd olundu. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Alı Qocayev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, dindarlar, ağsaqqallar və kənd sakinləri iştirak edirdilər. Şəhidin əziz xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Rayon icra hakimiyyətinin başçısı A.Qocayev çıxış edərək qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində 30 ilə yaxın həsrət qaldığımız torpaqlarımızı işğaldan azad etdi. Hər bir Azərbaycan vətəndaşı Cənab Prezident İlham Əliyevin Qarabağ Azərbaycandır! ifadəsi altında səfərbər olmağı bacardı və 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımızı azad etməklə yurd, Vətən sevgisinin hər şeydən üstün olduğunu bir daha sübut etdi.

Həmçinin tədbirdə şəhid Elçin Dostuyevin keçdiyi döyüş yolundan, qəhrəmanlığından danışıldı. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirib.

*İLHAM*

## YAP Şabran rayon təşkilatından növbəti aksiya




**YAP Şabran rayon təşkilatının əməkdaşları Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə inşa edilmiş şəkil lövhələrinin, Şabran şəhər Şəhidlər Xiyabanın Bulaq abidə komplekslərinin ətrafında təmizlik işləri aparıblar. SİA xəbər verir ki, tədbir çərçivəsində gül kollarına və yaşıllıq sahələrinə qulluq göstərilib, gül kollarının dibi yumşaldılıb və sulanıb, həmçinin şəkil lövhəsinin ətrafı təmizlənib.**

Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!

Qeyd edək ki, bu tədbirlər YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun 20 sentyabr 2021-ci il tarixli 111 saylı əmri ilə təsdiq edilmiş "Vətən müharibəsinin ildönümünün qeyd edilməsi ilə bağlı tədbirlər planı"nın 10-cu və 14-sü bəndlərinə uyğun təşkil olunur.

## YAP Səbail rayon təşkilatı Vətən müharibəsi şəhidinin anım tədbirinə qatılıb



YAP Səbail rayon təşkilatı Vətən müharibəsində şəhid olan Tağıyev Əli Aydın oğlunun ildönümündə iştirak edib. Rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidi Tağıyev Əli Aydın oğlunun məzarını və ailə üzvlərini ziyarət edib.

Vətən müharibəsində qəhrəmancasına şəhid olan Tağıyev Əli Aydın oğlunun şəhidlik zirvəsinə ucaldığı gündən bir il ötür. Vətən müharibəsinin ilk günlərindən döyüşə atılan Əli Tağıyev 2020-ci il oktyabrın 13-də Xocavənd rayonu, Hadrut qəsəbəsi istiqamətində gedən döyüşlərdə şəhid olub. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Şəhid Əli Tağıyevin ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin Ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildirmişlər.

*Rəfiqə*

## YAP Sabirabad rayon təşkilatının rəhbərliyi şəhid ailəsini ziyarət edib






Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının rəhbərliyi və fəalları İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Sabirabad rayon sakini Ağayev Ramil Ağarəhim oğlunun şəhadətinin ildönümünə həsr olunmuş mərasimdə iştirak edərək onun valideynlərinə dərin hüznlə başsağlığı veriblər.

Daha sonra şəhidin məzarı ziyarət olunub, məzarı üzərinə gül-çiçək dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib. Allah bütün şəhidlərimizə rəhmət etsin!

*Zümrüd*

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 13 oktyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Çaylı kəndindən olan şəhid Qəniyev Cahid Şaiq oğlu, Əliabad kəndindən olan şəhid Şahmarlı Elvin Malik oğlu və Zəhmətabad kəndindən olan şəhid Talıblı Asif Arif oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər. Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri düzüblər.

Allah rəhmət eləsin

*Rəfiqə*



# Vadim Dubnov: "İndi əsas məsələ sülh müqaviləsi deyil, bölgənin inkişafıdır"

*"Azadlıq" radiosunun rusiyalı müşahidəçisi, "Exo Kafkaza" xidmətinin əməkdaşı, Qafqazşünas mütəxəssis Vadim Dubnov "Caliber" analitik mərkəzinə müsahibəsində Cənubi Qafqaz regionunda gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.*

**- Bu gün Cənubi Qafqazda hansı geosiyasi proseslər gedir?**

- Cənubi Qafqazda bu bölgəni dünyaya cəlb etmək və açmaq cəhdləri var. Bəzi romantik terminlərlə danışsaq, bu bölgə nəhayət Sovet Zaqafqaziyası olmağı dayandırır, yəni koordinat sistemi dəyişir və "Cənubi Qafqaz" termininin də daxil olduğu daha böyük dünyanın bir hissəsinə çevrilir. Bu, çox ağrılı şəkildə baş verir: daxili proseslər, həddən artıq çətin tənzimləmə (Azərbaycan-Ermənistan münaqişəsi) və bu və ya digər şəkildə şahidi olduğumuz bu münaqişənin lokal nəticəsi. Maraqlı iştirakçılar hər hansı bir şəkildə öz xeyirlərinə oynamağa çalışırlar. Daha geniş bir nöqteyi-nəzərdən, dünyaya açılmaq üçün çalışan daha çox regional oyunçu ortaya çıxır.

**- "Maraqlı tərəflər" dedikdə kimləri nəzərdə tutursunuz?**

- Türkiyə, İran və Rusiya. Bölgədən uzaqda qalan Amerika Birləşmiş Ştatları, ümumən Qərb, buradakı proseslərlə maraqlanan ikinci dərəcəli bir ətrafdır. Amerika Birləşmiş Ştatları Türkiyə və Azərbaycanla münasibətlərdə maraqlıdır və buna görə də müəyyən dərəcədə onlar oyun iştirakçıları ilə iş qurmalıdırlar, düzdür, Gürcüstan mövzusunda bəzi fərqlər var, amma mənim fikrimcə, bunlar ikinci dərəcəli məsələlərdir.

Rusiya dünyaya açılan bu Cənubi Qafqaza qatılmaq üçün öz imkanlarını qorumağa və onları dəyişdirməyə çalışır, ona görə də, Moskvanın əsas məqsədinin Cənubi Qafqazda təsirini saxlamaq olduğunu düşünürəm. Düşünürəm ki, o, hər şeyi başa düşür və mümkün olan böyük tektonik dəyişikliklərə uyğunlaşmağa çalışır, yəni Rusiya və Türkiyə Ermənistanın cənubunda, İranın sərhədlərinin yerləşdiyi ərazidə böyük bir kommunikasiya nəqliyyat mərkəzinin inhisarçıları olmağa çalışırlar, hansı ki, həm də Türkiyə, Azərbaycan və Ermənistan sərhədlərinin qovşağını əhatə edir. Bu, aparılan danışıqlarda Rusiyanın təsirini qorumaqla bağlı məsələnin Moskva üçün ikinci dərəcəli olduğunu göstərir.

**- Sizcə, İranın Azərbaycanla bağlı narazılığına səbəb nə idi?**

- İran üçün yeni qüvvə bölgüsü gözlənilməz oldu və yeni vəziyyətə uyğunlaşmağa çalışır: keçən ilin 27 sentyabrından əvvəl mövcud olan status-kvo onun üçün məqbul idi. Bu status-kvo çökəndə Tehranın buna hazırlıqsız olduğu ortaya çıxdı: bu, Türkiyə və Azərbaycan üçün yeni bir rol, eyni zamanda İranın kənarda qalmaq riskini hiss etdiyi nəqliyyat əlaqələri üçün yeni imkanlardır.

İranın fəaliyyəti, gələcəkdə çox böyük ola biləcək bonusları paylaşmaq və ya ən azından yeni status-kvo ilə əlaqədar mümkün itkiləri minimuma endirmək hüququnu bir növ paya salmağa çalışması ilə bağlıdır.

**- Azərbaycandan, xüsusən də sülh müqaviləsinin bağlanması ilə bağlı müsbət mesajlara baxmayaraq, Ermənistan hələ də irəli addım atmağa hazır olduğunu nümayiş etdirməyib. Sizcə bunun səbəbi nədir?**

- Burada terminoloji qarışıqlıq var, çünki bəzilərinə elə gəlir ki, sülh müqaviləsi 1994-cü ilin mayında atəşkəsin imzalanması ilə oxşar bir şeydir. Xeyr, sülh müqaviləsi, ən mübahisəli və ziddiyyətli məqamların bir çoxunun həll ediləcəyi məsələlər paketidir. Sülh müqaviləsi təkcə bir bəyanat və Azərbaycan-Ermənistan münasibətlərinin yeni statusu deyil, həm də sərhəd məsələləri, hərbi əsirlər və s. məsələlərin həllidir.

Məncə, indi müzakirə olunan əsas şey sülh müqaviləsi deyil, bölgənin müharibədən sonrakı quruluşudur və bu, tamamilə fərqli bir prosesdir.

**- Mixail Saakaşvili hansı məqsədlə Gürcüstana qayıtdı?**

- Bu, Saakaşvilinin ağ fiqurlarla oynadığına əsaslanan bir şahmat oyunudur. Bir çox cəhətdən bu onun şəxsi siyasi janrıdır və nə etdiyini mükəmməl başa düşürdü. O, həqiqətən döyüşçüdür, oyunçudur: Ukraynada heç bir siyasi perspektivi yoxdur, həmişə bütün siyasi ambisiyalarını Gürcüstanla əlaqələndirir və buna görə də geri dönmək qərarına gəlir. Burada bu oyunun nə qədər uğurlu olduğunu anlamaq çox çətindir, ancaq əsas fikir yerli seçkilərin ilk turunda "Gürcü Arzusu" ilə döyüş meydanında seçiciləri səfərbər etmək, ikinci turda rəqibləri əsəbiləşdirmək, həmçinin, həbsxanaya düşmək, onlar üçün baş ağrısına çevrilməkdir. Düşünürəm ki, bu 3 vəzifənin hamısı qismən yerinə yetirilmişdir. Mişanın həbsdə olması "Gürcü Arzusu" üçün baş ağrısı idi? Demək çətindir. Düşünürəm ki, onun üçün müəyyən narahatlıqlar yaratdı, amma Gürcüstan hakimiyyəti başqa bir şeydən narahat idi. Məsələ Mişadan bir az yorulmuş Qərbin buna nə qədər dözəcəyidir.

Ona görə də 2-ci turu gözləyəcəyik və davamının nə olacağını görəcəyik. Hadisələrin necə inkişaf edəcəyini izləməliyik.

***Tərcümə - Elçin Bayramlı***

# Yalanlarla tarixi gerçəklikləri dəyişdirmək mümkün deyil...



Dağıdıcı düşərgədəkilərin müxalifətçiliyinin formulu belədir: öz dövləti, xalqı ilə kin və nifrət dilində danışmaq. Təbii ki, onların bu əməlləri cəmiyyətimiz tərəfindən qəzəblə qarşılandığından atdıqları hər addımda fiaskoya uğrayırlar. AXCP sədri Əli Kərimli, Müsavat Partiyasının başqanı Arif Hacılı və "Milli Şura"nın rəhbəri Cəmil Həsənli kimilər 30 ilə yaxın müddətdə tutduqları antimilli mövqeləri ilə əslində öz təşkilatlarını uçuruma yuvarladıblar. Vaxtilə bu qurumlarda təmsil olunan vətənsevər insanlar bunların şəxsi mənafe və ambisiyaları naminə milli maraqları heçə saydıqlarını, yalan və iftiralarla nəfəs aldıqlarını, dövlətə, xalqa xəyanət etdiklərini vaxtında görərək o şər yuvalarından uzaqlaşdılar.

Siyasət ilə az -çox maraqlananlar, həmçinin gündəmi diqqətlə izləyənlər yaxşı xatırlayırlar ki, bir neçə il bundan əvvəl xarici xüsusi xidmət orqanlarının əli ilə yaradılan "Milli Şura" adlı amorf qurum mövcud olduğu bir ilk gündən qaranlıq məqsədlərə xidmət edib. Cəmiyyətimiz yaxşı bilir ki, həmin qurum xarici ölkələrdəki anti-Azərbaycan dairələrin ideyası əsasında yaradılıb. Vaxtilə Müsavat Partiyasında təmsil olunan və bu düşərgənin cikinə-bikinə yaxından bələd olan Adil Qeybulla hələ 2013-cü ildə "Milli Şura"dakıları nəzərdə tutaraq söyləyirdi ki, başqa dövlətin xüsusi xidmət orqanları ilə, digər güc strukturları ilə separat əlaqələr dünyanın hər yerində Vətənə xəyanət kimi dəyərləndirilir: "Bu, cinayət tərkibli bir hadisədir, məsələ ictimailəşdirilməlidir, bu məsələlərdə cavabdeh olan şəxslər xalqın qarşısında cavab verməlidir. Çünki bəzi məsələlərin konturları görünməkdədir". Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu da hələ o vaxtlar bildirmişdi ki, bu təşkilata toplaşanların əsas məqsədi maddi maraqlardır: "Milli Şura"da qüvvələr nisbəti elə formalaşdırılıb ki, AXCP, Müsavat, İctimai Palata və başqa birliklər hegomonluq edə bilməz. Eyni zamanda, Əli Kərimli və İsa Qəmbər də müəyyən dövrlərdə "Mill Şura"ya böyük ümidlər bağladıqlarına görə bu vəziyyətlə razılaşmışdılar. Yalnız icra işlərini Müsavat və AXCP-yə tapşırmışdılar".

Təbii ki, biz 2013-cü ilin prezident seçkiləri ərəfəsində xaricdəki anti-Azərbaycan qüvvələrin təlimatı və "xeyir-duası" ilə formalaşdırılan "Milli Şura"nın necə yarandığını heç də təsadüfən xatırlamadıq. Çünki bu gün də dağıdıcı müxalifət düşərgəsində təmsil olunan AXCP, Müsavat Partiyası və "Milli Şura" kimi qurumların, eləcə də onlarla sinxron fəaliyyətdə, işbirliyində olan "siyasi mühacirlər" adlı xəyanətkar dəstənin kənar qüvvələr tərəfindən idarə olunması heç kimə sirr deyil. Ermənipərəst qüvvələrin boyunduruğu altında olan bu qurumların başbilənləri və bəzi Qərb ölkələrində "siyasi mühacir" adı ilə məskunlaşan məlum üzdəniraqlar sosial şəbəkələrdə ağız-ağıza verərək Vətənimizə, dövlətimizə, onun simvollarına qarşı çirkin, əxlaqsız qara piar kampaniyası aparmaqla anti-Azərbaycan dairələrin dəyirmanına su tökməkdə davam edirlər. Milli mənlik şüurunu itirən, həmin dairələrdən ianə və qrant alan bu antimilli ünsürlər 44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmizi, milli ruhumuzun, birlik və həmrəyliyimizin təntənəsi olan möhtəşəm Zəfərimizi həzm edə bilməyənlərin, Azərbaycanı gözü götürməyənlərin, ölkədə sabitliyi pozmağa çalışan qüvvələrin maşası rolunu əxlaqsızcasına oynayan xəyanətkar mənəviyyatsızların bütün çirkin fəaliyyətləri nəticəsiz qalacaq.

Niyə?... Çünki indi vəziyyət dəyişib. Azərbaycan 44 günlük Vətən müharibəsindəki qələbəsi ilə beynəlxalq hüququ bərpa edib, faktiki olaraq regionda və dünyada yeni reallıqlar yaradıb. Dövlətimizin başçısının söylədiyi kimi, bölgədə uzunmüddətli sülhün və sabitliyin bərqərar olması imkanından istifadə etmək üçün indi çox şey bu reallıqların region ölkələri, böyük dövlətlər tərəfindən düzgün qiymətləndirilməsindən asılı olacaq: "Zənnimcə, bu gün Azərbaycan həqiqətən də düşmənçilik, nifrət, qarşıdurma səhifəsini bağlamağa və region üçün gələcək qurmağa hazır olduğunu nümayiş etdirir. Əslində, biz artıq buna başlamışıq. Biz yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik və proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlamışıq".

Bəli, bu gün ölkəmizin başçısının bildirdiyi kimi, yeni reallıqları qiymətləndirməyə və əməkdaşlığın müsbət imkanlarına və sülh şəraitində birgəyaşayışa diqqəti cəmləşdirmək üçün hökumətlər və beynəlxalq təşkilatlar olaraq addımları planlaşdırmağa ehtiyac var. Əks təqdirdə "sapı özümüzdən olan baltalar"ın əli ilə Azərbaycana tələ qurmaq istəyən qüvvələr uduzacaq. Çünki uydurma və yalanlarla tarixi gerçəkləri dəyişdirmək mümkün deyil...

***Zahid Rza***

# Bu dəfə İranı pəjmürdə edən nədir?



***Bu gün İran-Azərbaycan böhranının regional nəşrlərin əsas mövzusuna çevrildiyi barədə deyilir. Belə görünür ki, Cənubi Qafqaz hələ də uzunmüddətli sabitlik mərhələsinə qədəm qoymayıb. Doğrudur, Rusiyanın vasitəçiliyi ilə Bakı ilə İrəvan arasında hərtərəfli sülh müqaviləsi bağlamaq üçün perspektivlər yaransa da, amma yenə də deyildiyi kimi, yəqin burada bəzi xarici faktorlar nəzərə alınmayıb.***

Məsələ bundadır ki, hazırda Tehran bu ərazilərdə yaşananlar fonunda özünü "oyundankənar" kimi görür və təbii ki, bu da onu qane etmir. Belə olan halda isə bəhanə tapmaq İran elə də bir çətilik törətmir, məsələn, Azərbaycan-İsrail münasibətlərinin inkişafı daha nə bilim, "sionistlərin Azərbaycan ərazisinə yığılıb İran üçün təhlükə törətmələri" və s.

Əslində, İranın bütün bu oyunlarının məğzində dayanan başqa məqamlardır. Deməli, müharibə nəticəsində Azərbaycan 1990 -cı illərdə Ermənistan tərəfindən işğal edilmiş İranla 130 km sərhədini geri qaytarıb. Azad edilmiş ərazilər Qara dəniz və Rusiyaya gedən mühüm ticarət yolunun Azərbaycan üzərindən İranı Ermənistanla birləşdirən əsas magistral yolun bir hissəsini ehtiva edir. Bundan başqa, bu gün Ermənistana yük daşıyan İran maşınlarından Azərbaycanın rüsum almaq qərarı Tehranı qəzəbləndirib deyə, o da buna cavab olaraq Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməyə başladı. Amma deyim ki, İranın Azərbaycana qarşı "xox" gəlmək niyyəti cavabsız da qalmadı və Türkiyə müttəfiqi Azərbaycanla Naxçıvanda birgə hərbi təlim keçirməyə başladı.

Etiraf edilməlidir ki, Cənubi Qafqazda yeni güc balansının formalaşması, yəni Tükiyənin Orta Asiyanın türkdilli ölkələri ilə ünsiyyəti üçün dəhliz əldə etmək istəyi İranı yaman qorxudur. İranlılar bu dəhlizin onların Ermənistanla ticarətinə əngəl törətməklə yanaşı, eyni zamanda Tehranın Orta Asiyadakı "nüfuz və təsirinin" narahatlığını da yaxşı anlayırlar.

Qeyd edək ki, İranın narahatlıqları tək təcrid olunmaq qorxusu ilə məhdudlaşmır. Məsələ bundadır ki, həm də Qərbə neft və təbii qaz daşıyan boru kəmərlərinin kəsişdiyi bölgədə enerji təchizatı marşrutları üçün rəqabət faktoru mövcuddur.

Xatırladaq ki, 1994 -cü ildən bəri BP, Xəzər dənizindən Türkiyənin Ceyhan limanına neft nəql edən boru kəməri də daxil olmaqla, Azərbaycanın enerji layihələrinə 70 milyard dollardan çox sərmayə yatırıblar. Təbii ki, Türkiyə ilə türkdilli ölkələr arasında siyasi və iqtisadi əlaqələrin gücləməsi gələcəkdə Türkmənistan neft və neft məhsullarının keçəcəyi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inkişafına da kömək edəcək. Belə olan halda, bu marşrutun İran Cənubi Pars yatağından İran, İraq, Suriya və Livan üzərindən Avropaya uzanan İran boru kəməri layihəsi ilə rəqabət aparacağı da "şübhə yeri qoymur". Bax, İranı ən şox pəjmürdə edən də budur.

***Ağasəf Babayev***

# Qarabağda toqquşan maraqlar: İran kim, Fransa kim?

*Münaqişə tərəflərinə qalsa problemi çoxdan həll etmişdilər, amma kənar qüvvələr hər addımda buna maneə törədirlər. Regionu öz təsir qüvvəsində saxlamaq istəyində olan güclərdən tutmuş silah alverçilərinə qədər, hər kəs iki dövlət, iki xalq arasında münasibətləri maksimum şəkildə, geriyə dönüşü olmayacaq həddə çatdırmağa çalışırlar. Qarabağda, Liviyada, Suriyada, Ukraynada, İraqda, Kəşmirdə, Fələstində, Balkanlarda, Orta Asiyada, KNDR-Koreya sərhədində, Aralıq, Qara və Xəzər dənizlərində, Əfqanıstanda baş verən qarşıdurmaların iştirakçıları "bəsdir" deyib, masaya oturmaq istəsələr də üçüncü, dördüncü, beşinci qüvvələr buna qəti şəkildə imkan vermirlər...*




Sən demə, Liviyada bizim təsəvvür edəcəyimiz, sovet adamlarının hər an arzuladığı kommünizm qurulubmuş. Bunu liviyalılar yalnız Fransanın rəhbərliyi və bilavasitə iştirakı ilə başladılan hərbi təcavüzdən bir neçə il keçəndən, Qəddafi öldürüləndən, ölkə xarabazara çevriləndən, əhali ac-yalavac gününə düşəndən sonra anladılar. Ölkə 100 il geriyə düşdü. Liviyanın yeraltı sərvətlərini yenidən bölüşdürənlər "hər şey bitdi" desələr də, görünənlər bunu əks etdirmir. Fransanın timsalında bu ölkəyə transfer olunan demokratiya küləyi 80 faizi səhradan ibarət olan Liviyada əsl fırtına qopartdı, hər şeyi vurub dağıtdı, milyonlarla insanın hüquqlarını tapdaladı, onların ən ümdə yaşamaq, ölkənin var-dövlətindən pay əldə etmək haqlarının üstündən xətt çəkdi. Beynəlxalq ictimaiyyət isə həmişə olduğu kimi susmağa üstünlük verdi və indi də bu münasibət davam edir. Kimsə Fransadan etdiklərinin hesabını soruşmaq üçün cəhd də etmək istəmir. Bir sözlə, avropalıların Femidası gözünü belə məsələlərə birdəfəlik bağlayıb. Əks halda Əlcəzairdə törətdiyi soyqırımına görə yalnız əlcəzairlilərin etirazına tuş gələn Fransa XXI əsrdə də cinayətlərini davam etdirməzdi. Paris əlcəzairlilərin soyqırımına görə beynəlxalq məhkəməyə çəkilmədiyi üçün belə qudurub. Hansı dövlətlə nə sayaq istəyir elə də rəftar edir.

Fransanın əlinin Qafqaza qədər də uzanmasının tarixcəsi də "Dağlıq Qarabağ" münaqişəsi ilə başlayır, desək səhv etmərik. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Fransa əslində hərbi-siyasi ilmələrini bizim bölgəyə çoxdan atıb. Osmanlı imperiyasının parçalanması, Yaxın Şərqin bölüşdürülməsi kimi proseslərin sırasında, Qafqazı, xüsusən də Azərbaycanın qarmağa keçirilməsi kimi irtica siyasətin önündə məhz Fransa gedirdi. SSRİ-nin dağılmasından iştahlanan Fransa Rusiyanı regiondan vurub çıxarmaq üçün ən çirkin gedişlərə imza atdı. Bu işdə ABŞ-ı da arxasına aldı, tarixən qəyyumluğunu etdiyi Ermənistan kimi qondarma dövlətin işğalçılıq əməllərinə dəstək oldu. Özü ortada görünməsə də ermənilərin Qarabağda törətdiyi qətliamların rejissorluğunu etdi. Beynəlxalq tribunalarda Ermənistanın törətdiklərinə müxtəlif don geydirmək də Fransanın dizaynı ilə baş tutdu.




Azərbaycanın xeyrinə çıxarılan qərarların həyata keçməsinə veto qoyan da rəsmi Paris oldu. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yada salaq, sonradan yaradılacaq Minsk qrupunun həmsədrləri olacaq ABŞ, Fransa və Rusiya bu qətnamələrə imza atsalar da, onun icrasına Fransanın Liviyaya tələsik hücumunu təmin edən BMT qətnaməsi kimi həvəs göstərmədilər. 27 il bu qətnamələr kağız üzərində qaldı...

Tarixə ekskurs etməyimiz səbəbsiz deyil. Bununla Fransanın əsl simasını qismən açıb göstərmək istədik. Və düşünürük ki, bu ifşa ilə rəsmi Parisin Minsk qrupunun həmsədri kimi fəaliyyətinə qiymət verilsin. Ədalətsiz davranışları ilə tarixdə iz buraxan ölkənin Qafqazda ədalət axtarışına çıxması müəmmalı, daha çox şübhəli görünür. Və həmin şübhə Fransanın hazırda yürütdüyü siyasətdə də öz təsdiqini tapır.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini 27 ildən sonra öz gücünə, xalqın iradəsinə, Ali Baş Komandanının qətiyyətinə və ən əsası beynəlxalq normalara söykənərək 44 günə həll etdi. Bu illər ərzində yüzlərlə həm ikitərəfli, həm də çoxtərəfli görüşlər, minlərlə konfranslar keçirildi. Ermənistanın Azərbaycanın BMT tərəfindən tanınmış ərazilərinin işğal etməsini Fransa kimi ölkələrə qandıra bilmədik. Daha doğrusu siyasi dildə apardığımız söhbətlər bəhrə vermədi. Bir sözlə, meydan dəyişdi, diplomatlar hərbçilərlə əvəz olundu.

Məsələnin əsas tərəfi isə budur ki, 30 ildən artıq davam edən bu münaqişədə ermənilərin və onların arxasında duran qüvvələrin "öz müqəddəratını təyin etmə hüququ" adlandırdıqları və beynəlxalq tribunalarda haray-həşir saldıqları təzyiq üsulu, Qarabağı Azərbaycandan qoparmaq iddiası həyata keçmədi. Çünki, masada olan sənədlər reallıqdan uzaq, subyektivlikdən doğan adi kağız parçaları idi. Azərbaycan isə hər kəslə hüquqi dildə, sənədlər əsasında, beynəlxalq qanunlar çərçivəsində söhbətlər aparır, Ermənistanın başlatdığı təcavüzkar, işğalçı siyasətin kökündən səhv olduğunu deyirdi. Sonradan məlum olacaqdı ki, sən demə ATƏT-in Minsk qrupunun həmsədrlik institutunun təşkilatçılığı altında aparılan danışıqlarda qarşı tərəf(lər) Azərbaycana öncə "öz müqəddəratını təyin etmə hüququ"nu tanımağı, "ərazi bütövlüyü" məsələsini isə yumşaq dillə desək, unutmağı "məsləhət" görürmüşlər.

Müharibə artıq Azərbaycanın qələbəsi ilə başa çatıb. Rusiya sülhməramlıları isə birgəyaşayış təmin olunana, Azərbaycan istəyənə qədər bölgədə qalacaqlar. Azərbaycan 3 ölkə arasında bağlanmış bəyanata uyğun olaraq Zəngəzur dəhlizinin açılması üçün həm siyasi,



həm iqtisadi addımlarını sürətləndirməkdədir. Ermənistanda da reallıqla barışanların sayı günbəgün artır. Paşinyanın "Qarabağ bizim boynumuzdan asılan ağır yükdür" ifadəsini anlayan və onunla razılaşan ermənilər addımlarını real mənzərəyə uyğun atmağa başlayıblar. Düşünürük ki, Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyasından sonra isə bölgəyə uzunmüddətli sülh gələcək. Amma...

İstər-istəməz yuxarıda dediyimiz fikirlərə yenidən qayıtmalı oluruq. Əgər məsələnin həll edilməsi münaqişə tərəfinin öhdəsinə buraxılsa onu həll etmək asan olardı. Bölgənin inkişafında yox, münaqişənin davam etməsində maraqlı olan qüvvələr isə fərqli düşünür. Fransa, ABŞ və son vaxtlar özünü regional güc kimi beynəlxalq ictimaiyyətə sırımağa çalışan, lakin Qərbin uzunmüddətli sanksiyalarından yorulub əldən düşmüş cənub qonşumuz İran Ermənistan-Azərbaycan münasibətlərini öz çıxarlarına uyğun yönləndirməyə çalışır. Qərb dövlətlərinin mərəzi bəllidir, idarə olunmayanı ram etmək və bunu da münaqişə tərəflərindən biri vasitəsilə həyata keçirmək. Bu da alınmayanda prosesə İranın timsalında növbəti oyunçunu qoşmaq. İran da bilməmiş deyil ki, 208 il bundan əvvəl fars rejimi Qafqaza tərəf boylanmasın deyə Rusiya tərəsindən "axtalanıb". Bir sözlə, əgər Tehran belə bir həvəsə düşmək istəsə öncə Rusiya ilə masaya oturmalı olacaq, necə ki, bunu 3 gün əvvəl İranın XİN başçısı Moskvada sınaqdan keçirmək istədi. Amma alınmadı.

Dünən isə bəlli oldu ki, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edib. Telefon danışığı zamanı iki ölkə arasında münasibətlərin son vəziyyəti müzakirə edilib. Tərəflərin söhbətində ölkələrin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmətin vacibliyi vurğulanıb. İran XİN rəhbəri Bakı və Tehran arasında uzunmüddətli və dayanıqlı münasibətlərin olduğunu bildirib. Hüseyn Əmir Abdullahiyan iki ölkə arasında münasibətlərdə anlaşılmazlığın qarşısının alınmalı olduğunu, əlaqələrin güclənən və artan istiqamətdə davam etməsinin vacibliyini qeyd edib. O bildirib ki, Tehran nəqliyyat tranzitində olan problemlərin tezliklə həll olunacağına ümid edir.

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da Azərbaycan və İran arasında dost münasibətlərin olduğunu iranlı həmkarının diqqətinə çatdırıb və əlavə edib ki, qonşu ölkələrlə dost münasibətlər Azərbaycan üçün prioritetdir. C.Bayramov məsələlərin dialoq yolu ilə səmimi atmosferdə həllinin vacibliyini qeyd edib. Deməli, İranın əndişəsi, çifayda...

Bu gün isə hindistanlı həmkarı ilə görüşündə Ermənistanın XİN başçısı Mirzoyan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşəcəyi ilə bağlı açıqlama verib. Moskvada da önəmli görüş baş tutub, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Moskva və bütün Rusiya Patriarxı Kirill və ermənilərin katolikosu II Qaregin arasında görüş keçirilib. Sonda qəbul edilən bəyanatda deyilir ki, Azərbaycan və Ermənistan xalqları arasında bugünkü və gələcək nəsillərin rifahı naminə sülhün bərqərar olmasına dini liderlər dəstək verməyə hazırdır.

Beləliklə, tərəflər hər ideyanı, fikri, hətta münaqişəni masa arxasında, danışıqlar yolu ilə həll edə bilərlər. Amma badalaq vuranlar olmasa...

**V.VƏLİYEV**

Təhlil

**Rus mütəxəssis: "Turistlərə Azərbaycanın şərab zavodlarına baş çəkməyi tövsiyə edərdim"**



Azərbaycana tətilə gedərkən, qədim Şamaxı şəhərinə səfər etməyi planlaşdırdığınızdan əmin olun. Özünəməxsus təbiətə və çoxlu sayda memarlıq abidələrinə əlavə olaraq, bu bölgə təbii üzüm sortlarından hazırlanan ləzzətli şərabları ilə də məşhurdur. Dağlarda, mənzərəli Meysari kəndində, ölkənin ən böyük üzüm bağları və şərab zavodları var. Qonaqlar üçün hər gün xüsusi şərab turları təşkil olunur, bu müddət ərzində somolye (şərab mütəxəssisired.) Aleksandr Alaniya yüksək keyfiyyətli içki seçməyi öyrədir və unikal təbii Azərbaycan şərabının dadını ortaya qoyur. Aleksandr Alaniya Moskva-Bakı portalına verdiyi müsahibədə, bir şərabçının şərabdan zövq almasının nə üçün asan olmadığını, təbii içkini fərqləndirən və hansı yemək üçün hansı növ şərabın ideal olduğunu izah edib. Müsahibəni oxucularımıza təqdim edirik.

# Aleksandr Alaniya: Azərbaycan qədim şərabçılıq ənənələrinə malik heyrətamiz bir ölkədir

**- Aleksandr, Azərbaycanla ilk tanışlığınızdan danışın. Necə oldu ki, Şamaxıya gəldiniz?**

- Azərbaycana ilk dəfə 10 il əvvəl gəlmişəm. Bakının ən yaxşı restoran və klublarında xidmət meneceri və somelye işləmişəm. Azərbaycan paytaxtını qeyri-adi memarlığı ilə bəyəndim: keçmişlə bu günün, tarixin və müasirliyin qarışığı, eyni zamanda bənzərsiz milli mətbəxi. Yeni tanışlıqlar və yeni dostlar qazandım. Ölkələri gəzməkdən, insanlara şərab içməyi öyrətməkdən zövq alıram. Azərbaycanlılar qədər heç kim yaxşı şərab haqqında çox şey bilmir. Bu səbəbdən yenidən bu ölkədə işləmək şansım olanda tərəddüd etmədən razılaşdım. Üstəlik, "Meysari" şirkətinin peşəkar şərabçılarından ibarət böyük bir komandanın bir hissəsi olmalı idim. Qədim Şamaxadan bir qədər aralıda yerləşən bu bənzərsiz kənddə Şərqi Avropada Avropa sertifikatı olan yeganə bio-orqanik şərab zavodu "Şirvan şərabları" fəaliyyət göstərir. Burada 6 xətli və 9 üzüm nümunəsindən ibarət olan, dadı əla olan təbii Azərbaycan şərabını istehsal edirlər.

**- Siz qədimdən şərabçılıq ənənələrinə malik olan Gürcüstanda doğulub böyümüşdünüz. Şərabı ilk dəfə nə vaxt dadmısınız?**

- Məndən hansı yaşda şərab içməyə başladığımı soruşanda cavab verirəm- ana bətnində. Və bu zarafat deyil. Fakt budur ki, Gürcüstanda bəzi həkimlər hələ də hamilə qadınlara bəzən kiçik bir stəkan qırmızı şərab içməyi məsləhət görürlər. Həqiqətən, az miqdarda şərab əla bir antioksidantdır və qandakı hemoqlobinin səviyyəsini artıra bilər. Qafqazda həmişə yaxşı şərab haqqında çox şey bilirdilər və ondan düzgün istifadə etməyi bilirdilər. Bu içki olmadan heç bir bayram tamamlanmır və əlbəttə ki, gözəl bir tost olmadan.

**- Bir vaxtlar məşhur Rublyovka ərazisində yerləşən elit restoranlardan birində işləmisiniz. Rublyovka sakinləri ən çox hansı şərabları sifariş edirdilər?**

- Bəli, yeri gəlmişkən, hələ də moskvalılar arasında çox populyar olan "Uryuk" restoranı idi. Çox vaxt ziyarətçiləri əsasən çəhrayı rəngli şampan sifariş edirdilər. Burqundiya və Yeni Zelandiya ağ şərabları və italyan qırmızı şərabları da yüksək qiymətləndirilirdi.

**- Somolyelər hansı biliyə malik olmalıdır?**

- Şərab onun ehtirasına çevrilməlidir. Məsələn, ölkənizin və dünyanın müxtəlif bölgələrindən olan şərabların fərdiliyini tanımalısınız. Somolyelər də şərabları ayırd edə bilməli, temperaturun nə qədər olması lazım olduğunu, şüşəni nə vaxt açacağını, hansı yeməyi hansı şərabla verməli olduğunu, müəyyən bir şəraitə və müəyyən bir insana uyğun şərabı necə seçəcəyini bilməlidir. Somolyelərin işi yalnız müştəri xidməti ilə məhdudlaşmır. Şərab siyahısının formalaşdırılması, işçilərin təhsili, şərab və içkilərin tədarükçüləri ilə işləmək- bütün bunlar həm də şam yeməyinin məsuliyyətidir. Mənə tez-tez soruşulan ən əhəmiyyətli sual, somolyelərin şərabdan nə qədər daddıqlarıdır. Biz şərabı dadırıq, içmirik. Bəzən, əlbəttə ki, içirik- bayram günlərində. Ancaq ümumiyyətlə, peşə həyatında o qədər həyəcanlıdır ki, ilk bir neçə ildə şərabdan zövq almaq çox çətindir. Bir ad günü və ya Yeni il üçün bir şüşə açırsınız və baxırsınız, dadını, tərkibini qiymətləndirməyə başlayırsınız. Beyin artıq müəyyən bir şəkildə qurulmuşdur: şüşəni açanda dərhal qiymətləndirməyə başlayırsan.

**- Görəsən hansı üzüm çeşidi sizin üçün daha yaxşıdır?**

- "Saperavi". Bibliya hekayəsinə görə, Cənnətdəki Adəm və Həvva qadağan olunmuş meyvəni- bir alma daddı, amma məncə "Saperavi" üzümü idi. Niyə məhz o? Ən qədim və unikal üzüm növlərindən biridir. Fransızlar bu içkiyə tinturier və ya şərab boyası deyirlər. Və "saperavi" adı gürcü dilindən "boyayıcı" kimi tərcümə olunur. Şərabçılıqdan ümumi insan dilinə çevrilən bu məna, "saperavi"nin yalnız dərisinin deyil, ətinin də qırmızı olduğu anlamına gəlir. Bu xüsusiyyət əksər qırmızı şərabların təbii fenolik zənginliyini və dərin rənglərini izah edir. "Saperavi" Azərbaycanda da yetişdirilir.

Üzüm pestisidlərdən, kimyəvi gübrələrdən və digər oxşar maddələrdən istifadə edilmədən yetişdirildikdə ondan əla təbii şərab istehsal olunur. Üzüm sahəsindəki torpaq üzvi məhsul yetişdirmək üçün yüksək standartlara cavab verməlidir. Məcburi tələblərdən biri də üzümçülük başlamazdan 3 il əvvəl torpağa heç bir sintetik təsirin olmamasıdır.

**- Oxucularımıza deyin, "ət üçün qırmızı, balıq üçün ağ" qaydası hələ də dəyişməzdirmi? Bütün yeməklərə uyğun gələn bir şərab çeşidi varmı?**

- Bəli, bəlkə də belədir, baxmayaraq ki, ağ şərab qırmızıdan daha çox yönlüdür. Ancaq unutmayın ki, hər şərabın öz zövqü, öz xarakteri var. Əksinə, bütün şərablara uyğun gələn yeməyi adlandıra bilərəm. Bu, "Tete de Moyne" pendiridir - qeyri-adi bir forması ilə seçilən, xüsusi qoxusu olan yarı sərt İsveçrə pendiridir. Qırılır, kəsilmir, nazik pendir yarpaqlarını güllərə çevirir. Bu növün adı fransız dilindən "rahib başı" olaraq tərcümə olunur. Pendirin yarandığı yer Bernese Jura bölgəsi idi. İlk dəfə "Tete de Moyne" rahiblər tərəfindən hazırlanıb, lakin tam olaraq nə vaxt məlum deyil. Bu pendir həm ağ, həm də qırmızı şərablarla yaxşı gedir.

**- Rus turistlərə hansı növ Azərbaycan şərabını sınamağı məsləhət görərdiniz?**

- Başlamaq üçün onlara şərab istehsalı prosesini öz gözləri ilə görmək üçün Azərbaycanın şərab zavodlarına baş çəkməyi tövsiyə edərdim. Orada turistlər içkinin dadına baxmaq, dad xüsusiyyətlərini hiss etmək və özləri üçün ən yaxşısını seçmək imkanı əldə edəcəklər. Və buradakı şərab fərqli dad və buketdən ibarətdir. Hər kəs özü üçün xüsusi bir şey seçə bilər. Axı, Azərbaycan şərabçılığın əsrlər əvvəl yarandığı ərazidə yerləşən heyrətamiz bir ölkədir. Əlverişli iqlim şəraiti, münbit torpaq yerli üzümün keyfiyyətini yaxşılaşdırır. Buna görə də burada istehsal edilən hər cür şərab xüsusi və bənzərsizdir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*





# Voskanyan: Zəngəzur dəhlizi təkcə İranı deyil, Hindistanı da narahat etməyə başlayıb



**Erməni politoloq, radikal açıqlamaları ilə tanınan Vardan Voskanyan son vaxtlar İranın bölgədə gərginliyi artırmasının səbəbini izah edib. "İki sahil" xəbər verir ki, yerli mediaya açıqlama verən politoloq rəsmi Tehranın ardınca Hindistanın da Ermənistanla münasibətləri dərinləşdirməsinin təsadüfi olmadığını deyib.**

**- Son günlər bölgəmizdə vəziyyət gərginləşib. Hazırda Zəngəzur dəhlizi kimi tanınan Turan dəhlizi təkcə İranı deyil, Hindistanı da narahat etməyə başlayıb. Bu səbəbdən bu iki ölkə əlindən gələni edir ki, yeni iqtisadi-siyasi layihələr reallaşdırsın. Erməni politoloq Tehranın bölgədəki qarışıq siyasi proseslərdə aktivlik göstərdiyini xüsusi vurğulayaraq ölkəsinin Zəngəzur dəhlizinə deyil Hindistanla İranın təklif etdiyi yeni layihələrə dəstək olmalarını vacib sayıb.**

**Qeyd edək ki, dünən Hindistan Xarici işlər naziri Subrahmanyam Cayşankar Ermənistana gəlib. O, Ermənistana səfər edən ilk Hindistan xarici işlər naziridir.**

SƏS
14 oktyabr
2021-ci il

# Ronaldodan yeni rekord!

*2022-ci ildə keçiriləcək Futbol üzrə Dünya Çempionatının seçmə mərhələsində Lüksemburqla matç Portuqaliya millisinin kapitanı Ronaldodan yeni rekord! Kristiano Ronaldo üçün əlamətdar olub. Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu görüşdə 3 qol vurub.*



Bununla da o, yığmada 10-cu dəfə het-trik edib. Beləliklə, Ronaldo rekorda imza atıb.

Qeyd edək ki, sözügedən qarşılaşmada Portuqaliya Lüksemburqa 5:0 hesabı ilə qalib gəlib.

# Amerikalı müğənni yad planetlilərlə bağlı açıqlama verib



*Amerikalı məşhur müğənni və aktrisa Demi Lovato bir müsahibəsində, yadplanetlilər haqqında danışarkən "yad" sifətinin istifadə edilməməsini və alçaldıcı olduğunu iddia edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Avstraliyada yayımlanan Pedestrian.tv-yə danışan Demi Lovato, var olduğu iddia edilən yadplanetlilərə "yadplanetlilər" deyilməməsi lazım olduğunu söyləyib. "Düşünürəm ki, yadplanetlilər hər halda alçaldıcı bir termin olduğu üçün onları yad etməyi dayandırmalıyıq" deyib.*

29 yaşlı müğənni, aldığı kiçik bir "ipucu" olduğunu iddia edərək, yad planetlilərə "ET "deməyə üstünlük verdiyini söyləyib. Məşhur müğənni bu ipucunu haradan aldığını izah etməyib. Yer kürəsi ilə bağlı ən böyük yanlış təsəvvürlərin nə olduğunu soruşduqda, Lovato: "Düşünürəm ki, zərərli olduqlarını söylədiklərini və ya gəlib planetimizi ələ keçirəcəklərini deməleri" cavabını verib. Bir əvvəlki müsahibəsində Lovato "UFO ilə gözəl və inanılmaz bir qarşılaşması olduğunu, bu səbəbdən onun reallığını mütləq dəyişdiyini" söyləyib.

Joshua ağacı Milli Parkında səhraya getdiklərində təxminən 15 metr uzaqlıqda mavi bir kürə gördüyünü, yerdən 4-5 metr yuxarıda düzdüyünü və özü ilə məsafəsini qoruduğunu deyən sənətçi "Bu qəti şəkildə dünyaya baxış tərzini dəyişir. Bir intiusiyanız var və sonra birdən birə bu intuisiya təsdiqlənir" deyib.

**Aytac Əliyeva**

# 100-dən çox insana...vaxtı keçmiş iynələr vurulub

***İsveçin Nüçöping şəhərində 100-dən çox insan vaxtı keçmiş dərmanlarla peyvənd olunub. SİA xarici mətbuata istinadən xəbər verir ki, on bir gün ərzində 100-dən çox insan COVID-19 əleyhinə köhnə dərmanlarla peyvənd edilib. Peyvəndlər bazar ertəsi Nüçöping peyvənd mərkəzlərində tətbiq edilib. Peyvənd istifadə etməzdən əvvəl bütün lazımi qaydalara riayət edilməklə saxlanılıb, lakin Pfizer tərəfindən tövsiyə olunan son istifadə müddəti bitib.***

Yerli səhiyyə orqanları, son istifadə tarixindən daha uzun müddət saxlanılan peyvəndləri qəbul edərkən heç bir tibbi risklərin olmadığında əmin etməyə çalışdırlar. "Bizim ilkin qiymətləndirməmiz ondan ibarətdir ki, hətta belə bir peyvənd koronavirusdan qorunmanı təmin edir. Bununla birlikdə, uzun müddətli saxlamanın hər hansı bir şəkildə vaksinə təsir göstərə biləcəyi barədə əlavə məlumat əldə etmək üçün Pfizer vaksin istehsalçısı ilə əlaqə saxladıq və bu, vaksinasiyanın təkrarlanmalı olduğu deməkdir", - deyə səhiyyə orqanlarının yerli nümayəndəsi Magnus Yoxansson bildirib.

Qeyd edək ki, müddəti bitmiş peyvənd alan 102 nəfər arasında 88 nəfər yaşı 12-dən 15-dək olanlardır. Onların hamısı hadisə barədə məlumatlandırılıb.

**Ağasəf Babayev**



# Kişilərə inanmadı, özünə ərə getdi



**Braziliyalı Kris Qalera adlı model qəribə addım atıb. "İki sahil" xarici KİV-ə istinadən xəbər verir ki, 33 yaşlı model özünə olan sevgisindən San-Pauloda özü ilə ailə qurub. Kris toyu haqda bunları danışıb: "Utanmadım, kilsəyə qətiyyətlə getdim. Makiyaj və saç düzümümü də özüm hazırlamışdım. Yanımda bəy olmadığı üçün hamı mənə qəribə baxırdı.**

Bu addımı atmağıma səbəb keçmiş münasibətlərimdə yaşadığım problemlər və özümə olan sevgim oldu. Bir qadına sadiq qalmaq kişilərə çətin gəlir. Onlara eyni vaxtda bir neçə qadın lazımdır. Heç vaxt özümdən boşanmayacağam. Yeni münasibət qursam da, həmin şəxs həmişə ikinci, mən isə 1-ci olacağam". Kris Qalera yaxın zamanlarda bal ayına çıxacağını da bildirib.

# Bakcell jurnalistləri mobil telekommunikasiya sahəsinin son trend və yenilikləri ilə tanış edib



KİV nümayəndələri üçün növbəti seminar keçirilib

Bakcell şirkəti jurnalistlər üçün növbəti dəfə iki günlük seminar təşkil edib. Hər il təşkil olunan bu ənənəvi seminarın əsas məqsədi jurnalistləri mobil telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, innovasiyalar və son tendensiyalar barədə maarifləndirməkdir. Seminar mobil telekommunikasiya üzrə məlumatlılığın və bu sahədən yazan jurnalistlərin peşəkarlığının artırılmasına xidmət edir.

"Mobil Telekommunikasiya - Son Trendlər və Yeniliklər" mövzusunda keçirilmiş seminara ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-a yaxın jurnalist qatılıb. Seminarda təlimçi qismində Bakcell və digər telekommunikasiya şirkətlərini təmsil edən Azərbaycanın aparıcı telekommunikasiya ekspertləri çıxış edib. Tədbir zamanı "Post COVID dövründə İT, Telekomda və istehlakçı davranışında trendlər", "Mobil şəbəkənin inkişafı və dövlət əhəmiyyətli tədbirlərdə şəbəkə dayanıqlığının təmin etmək üçün görülən işlər", "Pandemiyanın müştəri xidməti sektoruna təsiri və rəqəmsallaşma tendensiyaları", "Data mərkəzlərinin telekommunikasiyada rolu", "VoLTE texnologiyasının inkişafı" və "Smart şəhərlər və onların qurulmasında telekommunikasiya sənayesinin rolu" mövzuları üzrə interaktiv sessiyalar keçirilib.

Faydalı məruzə və təqdimatlarla yadda qalmış seminar zamanı təlimçilər jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, onlarla fikir mübadiləri və müzakirələr aparıblar.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600